# İSLAM MAARİFİ İLƏ XÜLASƏ TANIŞLIQ

## GƏNCLƏR ÜÇÜN 100 DƏRS

***TƏRTİB ETDİ:***
***MƏHƏMMƏD AZƏRİ***

بِسْمِ اللهِ الرَّحمنِ الرَّحِيمِ

## 1-Cİ DƏRS: ELM NƏDİR?

İslam peyğəmbəri (s) buyurur: "Elm üç şeydir: "ayətun muhkəmə", "fərizətun adilə" və "sunnətun qaimə". Bunlardan başqa nə varsa, elm yox, fəzilətdir" ("Üsuli - kafi,"c 1 s 37)

Mərhum Kuleyni yazır: "Ayətun muhkəmə əqidə əsaslarına (üsuli – din), "fərizətun adilə" əxlaq elminə, "sunətun qaimə" şəriət hökmlərinə (fürui – din) işarədir."

Mürtəza Mütəhhəri yazır: "Biz bə`zi elmləri dini, bə`zi elmləri isə qeyri-dini hesab edirik. Dini elmlər dedikdə dini əqidə, əxlaq, əməli elmlər və bu elmlərə giriş, müqqədimə olan ərəb ədəbiyyatı, məntiq və s. nəzərdə tutulur.

Bə`ziləri düşünə bilər ki, dini adlandırdığımız bu elmlərdən başqa nə varsa, gərəksiz bir şeydir. Əslində isə belə deyil.

Müsəlmanlar üçün faydalı olan bütün elmlər dini elmdir və bu elmləri öyrənmək vacibdir. Götürək ərəb dilinin qrammatikasını. Bu sahəni öyrənmədən Qur`anı anlamaq olarmı?! Deməк, insanı həqiqətə yaxınlaşdıran nə varsa, həm vacibdir, həm də savablı. Burada elm öyrənən insanın niyyəti böyük rol oynayır. Allaha yaxınlaşmaq məqsədi olmadan heç Qur`an öyrənməyin də savabı yoxdur..."

## 2-Cİ DƏRS: ELM ÖYRƏNMƏK VACİBDİRMİ?

Həzrəti Məhəmməd (s) buyurur: "Elm öyrənmək bütün müsəlmanlara vacibdir"; "Beşikdən qəbrədək elm öyrənin"; "Çində də olmuş olsa, elm öyrənin"; "hikmət mö`minin itkisidir..."Cəhalət dövrünün insanı "elm faydasız bir şeydir" deyə bilərdi. Amma bu günkü insan elmə biganə qala bilərmi?! Ətrafımıza nəzər salaq: Mexanikləşdirilmiş kənd təsərrüfatı, avtomatlaşdırılmış yüngül və ağır sənaye, kompüterləşdirilmiş tibbi diaqnostika, atom energetikası və s. Əgər "elm faydasız bir şeydir" deyən tapılsa, sadəcə, onu

bir neçə gün eləktirik enerjisindən mərhum etmək lazımdır. Qoy, bu insan qaranlıq dynyada cəmi bir neçə gün nəqliyyatsız, rabitəsiz, informasiyasız yaşasın! Onda elmin faydasını yaxşıca anlayar.

Amma insanı xoşbəxt etmək üçün onun həyatını elektrikləşdirmək, kompyüterləşdirmək kifayət etmir. Axı onun döyünən qəlbi, daim rahatlıq axtaran ruhu var! Elmi-texniki tərəqqi insanın cisminə rahatlıq yaradır. O isə təkcə cimdən yox, həm də ruhdan təşkil olunub. Ruhən xoşbəxt olmayan insan dünyadan imtina edir, intihara əl atır. Əksinə, ruhən xoşbəxt olan insan elektronikasız da keçinə bilir. Bəs ruhu necə xoşbəxt etməli? Allah-təala Qur`ani-kərimdə buyurur: "Qəlblər yalnız Allahı xatırlamaqla rahatlanar. "Dini elmlər isə məhz bunu, Allahı xatırlamağı və ona yaxışlaşmağı öyrədir!

## 3-CÜ DƏRS: DİNLƏR HAQQINDA

İnsanın digər canlı aləmdə əsil üstünlüyü onun dini e`tiqadıdır. Başqa xüsusiyyətlərə gəldikdə heyvanat aləmində daha güclü iste`dadlar müşahidə olunur. Məsələn, insan fiziki cəhətdən nə qədər güclü olsa da, təbiətdə ondan qat-qat güclü heyvanlar mövcuddur. Bal arısının həyatını ətraflı müşahidə etdikdə onun mühəndisliyinə, qənnadçılığına heyran qalmamaq olmur. Bəşər övladının bütün kəşfləri bir növ təbiətdəki əsərlərin surətidir. Demək, insan digər varlıqlardan yalnız dindarlığı ilə üsütün ola bilər

Bəşər tarixində dini e`tiqada malik olmayan bircə qəbilə də tapmaq mümkün deyil. Hətta Avstraliyanın mərkəzindəki ən geri qalmış tayfaların da dini e`tiqadı vardır. İnsan heç bir mənbədən ala bilməyəcəyi mə`nəvi qidanı dindən alır.

Bəşər tarixində diqqəti cəlb edən dinlərə nəzər salaq:

-Hindu dini (miladdan 1500-2000 il qabaq)
-Yəhudilik (miladdan 1200- 1500 il qabaq)
-Sintoizm (miladdan 660 il qabaq)
-Zərdüştilik (miladdan 660 il qabaq)
-Buddizm (miladdan 560 il qabaq)
-Konfusi dini (miladdan 551 il qabaq)
-Məsihilik (miladın başlanğıcı)
-İslam (miladi 610-cu il)

## 4-CÜ DƏRS: İSLAM HAQQINDA

Bu gün İslam dininə bir milyarddan çox insan e`tiqad edir. İslamın müqəddəs kitabı Həzrət Məhəmməd (s) peyğəmbərə nazil olmuş Qur`andır. Həzrət Məhəmməd (s) miladi 570-ci ildə indiki Səudiyyə Ərəbistanının Məkkə şəhərində qüreyş qəbiləsində anadan olmuşdur. O 40 yaşında peyğəmbərlik məqamına seçilmiş və 12 il Məkkədə İslamı təbliğ etmişdir.

Miladi 622-ci ildə Məkkədən Mədinəyə hicrət etmiş və həmin vaxtdan hicri-qəməri tarix başlamışdır. 630-cu ildə Məkkə Həzrət Məhəmmədə (s) təslim olmuşdur. İslam peyğəmbəri (s) 632-ci ildə dünyasını dəyişmişdir.

Həzrət Məhəmməddən sonra 28 il müddətində müsəlmanlara dörd xəlifə rəhbərlik etmişdir: Əbu Bəkr, Ömər, Osman və Həzrət Əli (ə) 660-750-ci illərdə İslam xilafətini bəni-üməyyə, 750- 1258-ci illərdə əbbasilər idarə etmişlər.

İslam tarixində iki məzhəb diqqəti daha çox cəlb edir. Müsəlmanlar arasında sünni məzhəbində olanlar çoxluq təşkil edir. Onlar sünnəti, yə`ni peyğəmbərin söz və əməlini əsas götürür və dörd xəlifəni ədalətli tanıyırlar.

İkinci böyük məzhəb olan şiələr peyğəmbər sünnəti ilə yanaşı Əhli-beyt hədislərinə də əsaslanır və həzrət peyğəmbərdən sonra canişinliyi həzrət Əlinin (ə) haqqı bilirlər. Şiələr 12-ci İmam həzrət Mehdinin zühur edib, ədaləti bərqərar edəcəyinə inanırlar.

## 5-Cİ DƏRS: MƏNTİQ

İslam elmləri iki hissəyə ayrılır: əqli elmlər və nəqli elmlər. Haqqında danışacağımız məntiq elmi əqli elmlərdən hesab olunur.

Bu elm İslama xaricdən daxil olmuşdur. Əvvəldə qeyd etmişdik ki, İslamda əsas elmlərin mövzusu e`tiqad, əxlaq və əməldir. Digər elmlər isə bu üç əsas elm üçün müqəddimə rolunu oynayır. Məntiq də həmin müqəddimə elmlərdəndir. Bu elm yunan mətnlərindən tərcümə olunmuşdur. Məntiq Ərəstunun (Aristotel) adı ilə bağlıdır.

Məntiq elminin yunanlardan götürmüş müsəlmanlar ona bə`zi əlavələr etməklə daha da kamilləşdirmişlər. İbni Sinanın "Əş-şifa" məntiqi müsəlmanlar arasında yaranmış və qəbul olunmuş məntiqdir.

Məntiq elmi düzgün düşünmə qanunlarından ibarətdir. Məntiqi bilən insan qarşısına çıxmış məsələyə münasibətdə bu elmdən ölçü aləti kimi istifadə edir. Deməli, məntiq insan zehnini xətalardan qoruyur.

Əgər məntiq düşüncənin, təfəkkürün düzgünlüyünə xidmət edirsə, düşüncüyə tərif vermək lazım gəlir. Təfəkkür bir neçə mə`lumu əlaqələndirib yeni mə`lum əldə etmək və məchulu mə`luma çevirməkdir.

Sadə bir misal: İlqar ərəbcə bilirmi? Düşünürük: Mədrəsəni bitirənlər ərəbcə bilir; İlqar mədrəsəni bitirib. Nəticə alırıq: İlqar ərəbcə bilir.

Demək, düşünən insan əvvəlcədən mə`lum olanları lazımı ardıcıllıqla düzüb, məchulu tapır.

## 6-CI DƏRS: MƏNTİQİN MÖVZUSU

Hər bir elmin mövzusunu bu elmdə haqqında bəhs olunan məsələlər təşkil edir. Məntiqin mövzusu tə`rif və dəlildir. Əslində bütün elmlər özünə aid olan şeylərə tə`rif vermək və müəyyən qanunları isbat etməklə məşğuldur. Məsələn, fizikada enerjiyə tə`rif verilir və onun etməməsi qanunu sübut edilir. Amma məntiq elmi heç nəyə tə`rif vermir və heç nəyi də sübut etmir. Bu elm düzgün tə`rif verməyi və düzgün dəlil gətirməyi öyrədir.

İslam məntiqi iki hissədən ibarətdir: təsəvvür və təsdiq. Məsələn, tovuz quşunu ilk dəfə görən insan hiss edir ki, zehnində bu vaxtadək olmayan bir təsəvvür yaranır. Gördüyümüz quş mə`lum idi. Təsəvvürümüzdəki isə həmin mə`lumun surətidir. Demək, elm mə`lumların zehnimizdəki surətidir.

Zehn aldığı surəti ya təsdiq, ya da inkar etməlidir. Əgər zehn aldığı mə`lumatı doğru hesab edirsə, bu təsdiqdir.

Həm təsəvvür, həm də təsdiq iki cür ola bilər: zəruri və ya nəzəri. Alınan mə`lumatı düşünməyə ehtiyac yoxdursa, bu zəruridir. Məsələn, hiss olunan istiliyi düşünməyə ehtiyac yoxdur. Amma, məsələn, mələk və cini təsəvvürləri düşünmədən təsdiq oluna bilməz. Belə təsəvvürlər nəzəridir.

## 7-Cİ DƏSR: MƏNTİQİN FAYDASI VARMI?

Məntiqə verilən tə`rifdən aydın olur ki, məntiqin faydası vardır: məntiq təfəkkürdə zehnin xətasının qarşısını alır.

Zehn fəaliyyətə başlayaraq öz mə`lumlarından istifadə edərək məclulu tapmaq istəyir. Məntiqin işi mə`lumlara elə bir düzüm verməkdir ki, düzgün nəticə əldə edilsin. Deməк, məntiq zehnə düzgün fəaliyyət istiqamətini göstərir. Məntiq elmini bilməyən insan zehnə düzgün nəzarət etməkdə acizdir.

Zehn iki halda xətaya yol verə bilər:

1- Məchulu mə`luma çevirmək üçün götürülmüş müqqəddimə yanlış ola bilər.
2- Müqqədimə mə`lumatların düzümü yanlış ola bilər.

İnsan zehnində hər hansı dəlil bina kimidir. Bu binanın e`tibarlı olması üçün həm materiallar, həm tikiliş möhkəm olmalıdır.

Məsələn, deyirik: "Sokrat insandır və hər insan zalımdır. Demək, sokrat zalımdır." Burada, dəlillərin düzümü, forması doğru olsa da, "hər insan zalımdır" fikri yanlışdır. Ona görə də doğru nəticə alınmır.

Amma desək ki: "Sokrat insandır və sokrat alimdir. Demək, insan alimdir," burada forma məntiqi deyil.

Düzgün dəlil və düzgün düzümdə isə nəticə də doğru alınır. Məsələn: "İnsan canlıdır və sokrat da insandır. Demək, sokrat canlıdır."

## 8-Cİ DƏRS: FƏLSƏFƏ

Fəlsəfə yunan sözüdür. Yunanca "Filosofiya" dedikdə "biliyə sevgi" nəzərdə tutulur. Əflatun Sokratı "filosof" adlandırardı. Amma Sokratdan əvvəl özünü "sofist," yə`ni alim adlandıran insanlar vardır. Sofistlər iddia edirdilər ki, həqiqətin ölçüsü insan idrakıdır. Zaman keçdikcə sofist sözü mə`nasını dəyişərək mənfi anlamda işlənməyə başladı. Ona görə də Sokrat bu addan imtina edərək özünü, sadəcə, filosof, yə`ni elmin dostu, elmi sevən kimi tanıtdırdı.

Fəlsəfə müsəlmanlar arasında xüsusi bir fənn kemi tanınmış, demək olar ki, bütün əqli biliklərə şamil edilmişdir. İlk əvvəllər ilahiyyat, riyaziyyat, təbiət, siyasət, əxlaq kimi əqli elmlərə malik olanlara filosof deyərdilər. Fəlsəfə hikmət də adlandırılıb.

İslamda fəlsəfə və ya hikmət iki qismdir: nəzəri və əməli. Nəzəri fəlsəfə də üç hissəyə ayrılır: İlahiyyat, riyaziyyat, təbiət. Bu təsnifatı davam etdirmək olar. Məsələn, riyaziyyat dörd hissədir: hesab, həndəsə, astranomiya, musiqi.

Bəs “qərb fəlsəfəsi” dedikdə nə başa düşülür? Fəlsəfədə yeni dövrə (????) başçılıq edən Dekart və Bekon bütün əqli elmlərdən imtina edərək təcrübə və hissi əsas götürdülər. Amma başqa bir cərəyanın nümayəndələri təcrübə yolu ilə təhqiq oluna bilən bilikləri elm, əqli bilikləri isə fəlsəfə adlandırmaqda davam edirlər

## 9-CU DƏRS: İSLAM FƏLSƏFƏSİ.

İslam fəlsəfəsi iki qismə bölünür: İşraqilik və məşşailik. İşraqiliyə Şeyx Şihabəddin Sührəvərdi, məşşailiyə İbn Sina başçılıq etmişdir. İşraqilər Əflatunun, məşşailər isə Ərəstunun ardıcıllarıdır.

İşraqilərə görə fəlsəfi məsələlərin, xüsusi ilə də ilahi hikmətin təhqiqində dəlil və əqli düşüncə kifayət deyil. Onlar həqiqətə çatmaqda nəfsin paklığını, nəfslə mübarizəni zəruri bilirlər. Məşailər isə yalnız dəlillərlə kifayətlənir.

Maraqlıdır, görən Əflatunla Ərəstun arasında belə bir fikir ayrılığı olmuşdurmu? Hər halda belə bir ixtilafın mövcud olması haqqında Farabinin məşhur bir kitabı vardır.

Əflatun fəlsəfəsinin əsasını üç müddəa təşkil edir ki, Ərəstun bu müddəaların hər üçü ilə müxalifdir:

1- Əflatuna görə dünyada müşahidə etdiklərimizin həqiqisi başqa bir aləmdir.
2- Ruhlar hələ bədənlərə daxil olanadək həmin aləmdə mövcud olmuş və yalnız bədən yarandıqdan sonra onunla əlaqələnmişlər.
3- İnsan bu dünyada heç nə öyrənmir, sadəcə, ruhunun həmin aləmdə gördüklərini xatırlayır. İnsan cimi üçün həqiqətin dərkində manedir və həqiqətə çatmaq üçün hökmən nəfs tərbiyə olunmalıdır.

## 10-CU DƏRS: DÖRD BAXIŞ

İslamda işraqilik və məşailikdən əlavə daha iki mühüm fəlsəfi baxış vardır: ürfan və kəlam. Ürfan ardıcılları arif, kəlam ardıcılları mütəkəllim adlanır. İslam fəlsəfəsində ilkin araşdırmalar ariflər və mütəkəllimlərə məxsusudur.

Məşşailərə Farabi, İbn Sinanı, işraqilərə Şeyx İşraq, Qütbəddin Şirazinin, ariflərə Cüneyd Bağdadi, Zünnu Misrini, mütəkəllimlərə Şeyx Müfid, Şeyx Mürtəzanı misal göstərmək olar.

Onu da qeyd etməliyik ki, mütəkəllimlər də öz növbəsində üç qrupa bölünür: Mö`təzilə, əş`əri, şiə.

Fəlsəfə və hikmətdə mövcud olan bütün cərəyanlar dörd nəzəri əsasdan birini daşıyır. Onlar ya istidlali, ya zövqi, ya təcrübi, ya da cədəli hikmətə üstünlük verirlər.

Bütün cərəyanların əsas mövzusu varlıqdır. Varlıq aləmi dörd hissəyə ayrılır:

11- Təbiət aləmi; 2- Təbiətdən üstün misal və ya mələkut aləmi; 3- Mələkut aləmində üstün mə`na və ya cəbərut aləmi; 4- Ən üstün lahut və ya ilahi aləm.

Varlıq mövzusuna müxtəlif nəzərlərlə yanaşan dörd cərəyandan, nəhayət, vahid bir cərəyan yaranmışdır. "hikməti-mütəaliyyə" adlanan bir cərəyanın banisi Sədrül – mütəallihin Şirazidir. "hikmət – mütəaliyyə"də əvvəlki dörd cərəyan arasındakı ixtilaflar, demək olar ki, həmişəlik həll olunmuşdur.

## 11-Cİ DƏSR: KƏLAM ELMİ

Kəlam elmi dini əqidələr, onların sübutu və müdafiəsi ilə məşğul olan İslam elmidir. İslam alimləri İslam tə`limlərini üç hissəyə bölürlər: əqidələr, əxlaq, hökmlər. Kəlam elminin mövzusu əqidələr, əxlaq elminin mövzusu əxlaq, fiqh elminin mövzusu isə əməli hökmlərdir. Kəlam elmi "usuli-din", "tövhid və sifətlər" də adlandırılır.

Kəlam elmi öz başlanğıcını Qur`ani-kərim, peyğəmbər (s) buyuruqları və həzrət Əlinin (ə) xütbələrindən götürür.

Kəlam tarixində ilk mübahisə doğuran məsələ cəbr və ixtiyar məsələsi olub. Yetkinlik yaşına çatmış hər bir şəxs üçün maraqlıdır ki, insan azaddır (ixtiyar), yoxsa məcbur (cəbr). İlk əvvələr insanın azad olduğunu iddia edənlər "qədri", insanın yazılmış taleh yaşamağa məcbur olduğunu iddia edənlər "cəbri" adı ilə tanınardılar. Cəbr və ixtiyar "qəza və qədər" adı ilə məşhurdur.

Cəbr və ixtiyar məsələsinin ardınca zülm və ədalət məsələsi ortaya çıxdı. Beləcə, kəlam elmində mübahisə mövzusu olan məsələlər çoxaldı.

Başqa bir baxımdan kəlam elmi əqli və nəqli olmaqla iki hissəyə bölünür. Əqli kəlama sırf əqli dəlillərə əsaslanan tövhid, nübüvvət və bə`zi məad məsələləri aiddir. Bu məsələlərdə kitab və sünnət kimi nəqli dəlillər kifayət deyil. Nəqli kəlama isə imamət və əksər məad məsələləri aiddir.

## 12-Cİ DƏRS: KƏLAM ELMİNİN TƏ`RİFİ VƏ MÖVZUSU

Kəlam elmi dini əqidələr, yə`ni üsuli-din haqqında elmdir. Bəs nə üçün bu elm kəlam adlandırılmışdır? Alimlər bu suala müxtəlif cür cavab verirlər. Bə`zilərinin fikrincə, bu elmin mövzuları Allah kəlamı ətrafında olduğundan elm də kəlam elmi adlandırılmışdır.

Kəlam elminə münasibətdə müxtəlif məzhəblər mövcuddur. Məsələn, şiə, mö`təzilə, əş`əri, murciə. Şiə məzhəbinə tabe olanlar diri müctehidə əməli məsələlərdə təqlid, müctehidlər isə mövcud biliklərlə kifayətlənməyib, axtarışda olmalıdırlar.

Mö`təzilə əqidəsinin beş əsası vardır: 1. Tövhid; 2. Ədl; 3. Və`d və vəid (mükafat və cəza); 4. Günahkar nə mö`mindir, nə də kafir; 5. Yaxşıya də`vət və pisdən çəkindirmə şəriətə aid deyil, əql yolu ilə müəyyənləşdirilə bilər və bütün müsəlmanlara vacibdir.

Mö`təzilə tərəfdarları bəni-üməyyə və bəni-əbbasilərlə yaxşı münasibətdə olmamışlar. Amma xəlifə Mə`mun özü elm, ədəb, fəlsəfə ilə maraqlandığından onları himayə etmiş, hətta özünü mö`təzim adlandırmışdır. Amma xəlifə Mütəvəkkil mö`təzililəri qılıncdan keçirmişdir.

Əş`ərilərə görə insan azad deyil, xeyir də, şər də Allahdandır. Allah qiyamət günü görünər, günahkar mö`min ola bilər, insan tövbəsiz bağışlana bilər və sa.

İslam fəlsəfəsini şiələr qoruyub desək yanılmarıq. E`tiqadda əqli dəlili haram hesab edən sünnət əhli başçılarından fərqli olaraq, həzrət Əlinin (ə) "Nəhcül-bəlağə" kitabı ciddi əqli dəlillərə əsaslanır.

## 13-CÜ DƏRS: ŞİƏ KƏLAMI

Şiə kəlamının əsasını aşağıdakı üsullar təşkil edir:

1. Tövhid

Tövhid mö`təzilə və əş`əri kəlamında da əsaslardan biridir. Mö`təzilə kəlamındakı tövhid "sifati tövhid"-dir. Əş`ərilər isə "əf`ali tövhidi" qəbul edirlər. Şiə kəlamında isə "zatı tövhid" və "ibadətdə tövhidə" əlavə olaraq həm "sifati", həm də "əf`ali" tövhid əsas hesab olunur.

"Zati tovhidə" görə Allahın zatı birdir və Onun oxşarı yoxdur. "Sifati tövhidə" görə Allahın elm, qüdrət kimi sifətləri Onun zatının eynidir, yə`ni zatından ayrı deyil. "Əf`ali tövhidə" görə bütün fe`llər, işlər Allahın iradəsinə

tabedir. "İbadətdə tövhid" odur ki, Allahın zatından savayı ibadətə layiq mövcud yoxdur.

2. Ədl, yə`ni Allahın rəhmət və ne`məti bütün yaranmışlar arasında ilahi bir nizamla paylanmışdır və O adildir.
3. İxtiyar və azadlıq.

Şiə məzhəbinin insan üçün qəbul etdiyi azadlıq əş`ərinin cəbri ilə mö`təzilənin təfvizi arasındadır. Yə`ni insan nə tam azaddır, nə də tam məcbur.

4. Hüsn və qübh (gözəllik və çirkinlik). Bə`zi işlər rəva, bə`ziləri isə narəva hesab olunur.
5. Allahın lütfü varlıq aləminə hakimdir.
6. Əql batini peyğəmbərdir, yə`ni əsasdır.
7. Allah kainatı məqsədli yaradıb.
8. İnsan Allaha qəlblə şahid ola bilər, gözlə yox.
9. Peyğəmbər və imamlar mə`sumdur, şəfaət var

## 14-CÜ DƏRS: ÜRFAN

Ürfan İslam mədəniyyəti qoynunda doğulmuş elmdir. Ürfan ardıcılları, yə`ni ariflər təfsirçilərdən, fəqihlərdən filosoflardan, ədiblərdən mühüm bir xüsusiyyətə görə fərqlənirlər. O biri təbəqələrdən fərqli olaraq onlar yalnız elmi təbəqə yox, həm də ictimai firqədirlər. Əslində yalnız elmi təbəqə kimi tanınan ürfan əhli "arif", ictimai firqə kimi tanınan ürfan əhli isə "mütəsəvvif" (sufi) adlandırılır.

Ariflik xüsusi bir məzhəb deyil və İslamın bütün məzhəblərində ariflərə təsadüf olunur. Bununla belə, xüsusi adət- ən`ənələrə, rəftar və geyimə malik sufilərin varlığını inkar etmək olmaz. Əsil ariflər isə başqalarından zahirən fərqlənmirlər. Belə ariflər işə məzhəbində də az olmayıb. Demək, ürfandan danışarkən arifləri sufilərdən fərqləndirmək lazımdır.

Ürfan elmi iki hisssəyə bölünür: Əməli ürfan və nəzəri ürfan. Əməli ürfandan insanın özünə, cəmiyyətə və Allaha aid vəzifələri izah olunur. Ürfanın bu hissəsi "seyrü-süluk" adlanır. Bu hissəsdə "Salikin (yolçunun) insaniyyət zirvəsi olan "tövhidə" çatması üçün yol göstərilir. Arifin "tövhidi" adi "tövhiddən" fərqlənir. Arif tövhid dedikdə Allahdan başqa heç nəyin görünmədiyi mərhələyə çatmağa nəzərdə tutur.

Nəzəri Ürfanda isə Allah, kainat və insan haqqında danışılır. Ürfanın bu hissəsi İlahi fəlsəfəni xatırladır.

## 15-Cİ DƏRS: ÜRFAN VƏ İSLAM

İstər əməli, istərsə də nəzəri ürfan. İslam dini ilə sıx təmasdadır. Həqiqi ariflər Qur`an, sünnət, əhli-beyt və səhabələrdən qidalanırlar. Amma müxtəlif alimlər ürfan haqqında fərqli fikirlər yürüdürlər;

1. Bir qrup mühəddis və fəqih ürfanı həqiqi İslamdan kənar bilirlər. Onlar iddia edirlər ki, ariflərin İslama bağlılığı müsəlmanların diqqətini cəlb etmək üçündür.
2. Bir qrup ifratçı alim ürfanı İslam ziddinə qiyam kimi qiymətləndirir və arifləri həqiqi imandan kənar insanlar kimi tanıtdırırlar
3. Digər bir qrup alim ictimai təbəqə olan sufiləri dindən kənar, elmi təbəqə olan arifləri isə müsəlman kimi tanıyır. Onların fikrincə, ariflərin də filosoflar, təfsirçilər kimi nöqsanları ola bilər. Amma ürfan İslama zidd deyildir.

Amma qərəzsiz olaraq ürfan kitabları ilə tanış olub, ürfan terminalogiyasını anlasaq, görərik ki, ariflər İslama münasibətdə səmimidirlər. Ürfana üçüncü baxış həqiqətə daha çox uyğundur.

Ariflər Allaha yaxınlaşmaq istəyində olan insanlardır. İslam dini isə bu yaxınlaşmanın gerçəkləşməsini ən üstün şəkildə tə`min edən dindir. Beləcə, ariflərin İslama bağlılığı və səmimiyyəti tam məntiqə uyğundur.

## 16-CI DƏRS: ŞƏRİƏT, TƏRİQƏT, HƏQİQƏT.

Ariflərlə fəqihlər arasında ən çox ixtilaf doğruran məsələ "şəriət, təriqət, həqiqət" məsələsidir. Fəqihlər şəriət dedikdə insanı xoşbəxt edəcək İslam hökmlərini nəzərdə tuturlar və şəriətə əməl etməyi yeganə yol bilirlər. Ariflər isə şəriəti yol kimi başa düşür və bu yolu təriqət adlandırırlar. Onların fikirincə bu yolun sonu həqiqətdir. Deməli, ariflərin nəzərincə, şəriət təriqət üçün, təriqət isə həqiqət üçün bir vasitədir. Fəqihlərin fikirincə İslam əqidə, əxlaq və əməldən ibarətdir. Əqidə ağıla, əxlaq nəfsə, əhkam isə əzalara aiddir.

Lakin ariflər sırf zehni e`tiqadı kifayət bilmir, iman gətirdikdən sonra fəaliyyət göstərib, həqiqətlə insan arasındakı pərdələrin aradan qaldırılmasını əqidə məsələsi kimi tanıyırlır.

Ariflər fəqihlərin əxlaq proqramı əvəzinə xüsusi tərkibə malik ürfani proqram təklif edirlər.

Dini hökmlərə gəldikdə isə fəqihlərlə ariflər arasında elə bir ziddiyyət yoxdur.

Deməmk, fəqihlərin "əqidə, əxlaq, əməl" üçlüyünə qarşı ariflər "şəriət, təriqət, həqiqət" üçlüyünü çıxarırlar. Ümumiyyətlə, insan cism, nəfs və əql üçlüyündən təşkil olunduğu üçün ürfanın da fəqh kimi üç istiqamət müəyyənləşdirməsi təbiidir. Həm fiqh, həm də ürfandakı üçlüklərdən biri zahirə, digəri batinə, üçüncüsü isə batinin batininə aiddir.

## 17-Cİ DƏRS: ÜRFANDA MƏNZİLLƏR.

Ürfanda həqiqətə çatmaq üçün mənzillər müəyyənləşdirilmişdir.

İlk mənzil "iradədir". İradə həqiqətə çatmaq üçün insanda yaranmış rəğbətdir. O, əslində yatmış şüurun oyanmasıdır. İradə insanın tənhalıq hiss edərək öz əslinə qayıtma istəyidir. İnsan elə bir həqiqətə çatmaq istəyir ki, tənhalıq hiss etməsin.

İkinci mənzil"riyazət"dir. Riyazətin üç hədəfi var: yoldan maneləri kənarlaşdırmaq, əmmarə nəfsi cilovlamaq, batini, agahlıq üçün yumuşaltmaq.

"Riyazətin" ürfanı mə`nası nəfsi incitməkdir. Amma bu sözün lüğət mə`nası cavan atın tə`limidir.

İradə və riyazətdən sonra insanın qəlbində olduqca ləzzətli ani işıqlanmalar olur. Ariflər bu halı "ovqat" adlandırırlar.

Nəhayət, riyazət bir həddə çatır ki, "ovqat" "səkinə" halı ilə əvəz olur. Qəlbdəki qığılcım daimi şö`ləyə çevrilir. Səkinə halında olan insana baxan şəxs onun qeyri-adi halda olduğunu hiss edir.

Lakin insan bu məqamda dayanmır. Anba an həqiqətə yaxınlaşdıqca insan öz ixtiyarından çıxır və hər zaman özünü Allahın hüzurunda hiss edir. Bu mərhələyə çatmış insan hətta özünə baxdıqca həqiqəti müşahidə edir.

Nöbəti mərhələdə insan özünü unutmağa başlayır və həqiqətə qovuşur.

## 18-Cİ DƏRS: FİQH ÜSULU (USULİ-FİQH)

Mövzumuz üsul elmidir. Üsul elmi fiqh və üsul elmlərinin birləşməsindən yaranmışdır. Üsul elmi fiqh elmi üçün müqəddimə rolunu oynayır.

Fiqhin lüğət mə`nası dərin fəhmdir. Qur`ani-Kərimdə, peyğəmbər və imamların buyuruqlarından tez-tez "təfəqqüh" kəlməsi ilə rastlaşırıq. Təfəqqüh din elmlərinin öyrənməsinə işarədir.

Sözsüz ki, İslam hökmlərində bütün məsələlər işıqlandırıla bilməz.

Fiqh elmi ilə məşğul olan alimin, yə`ni fəqihin vəzifəsi mö`təbər mənbələrə əsaslanaraq yeni hadisələr barədə öz nəzərini bildirməkdir. Fiqh e`tiqad yox, əməli hökmlər haqqında elmdir.

Hər bir fəqih aşağıdakı elmlərdən müqəddimə kimi istifadə edir:

1. Ərəb ədəbiyyatı, yə`ni nəhv, sərf lüğət, məani, bəyan, bədi`.
2. Qur`ani-Kərimin təfsiri
3. Məntiq
4. Rical elmi (rical elmi hədisləri nəql etmiş raviləri tanımaqdır)
5. Hədis elmi
6. Fiqh üsulu

Üsul elmi hər hansı bir hökmün sübutu elmidir. Bu elm fiqh mənbələrindən istifadə edərək düzgün subut etmə üsulunu öyrədir.

## 19-CU DƏRS: FİQH ÜSULU ELMİNİN MƏNBƏLƏRİ

Şiə məzhəbində fiqh elminin dörd mənbəsi vardır: 1. Qur`an; Sünnət, yə`ni peyğəmbər və imamların buyuruğu və əməli; 3. İcma; 4. Əql.

İslam hökmlərinin ilkin mənbəsi Qur`andır. Əlbəttə ki, Qur`an yalnız əməli hökümlərdən ibarət deyil. Qur`anın 6666 ayəsindən beş yüz ayəsi əməli hökmlərə aiddir.

Müsəlmanlar İslamın əvvəl vaxtlarında bir hökmün sübutu üçün Qur`ana müraciət ıedərdilər.Sonradan özünü işə hesab edən "əxbariyyin" adlı kiçik bir qurup adi insanlara Qur`ana əsaslanmağı caiz bilirdilər.

Sünnət dedikdə peyğəmbər və mə`sum imamların sözü və əməli nəzərdə tutulur. Demək olar ki, bütün məzhəblər sünnətə müraciət edir. Şiələr belə hesab edirlər ki, yalnız şiə və adil insanların, ən azı doğruçuluğu sübut olunmuş insanların nəql etdiyi hədislər etibarlı sayıla bilər. İcma bir məsələ haqqında müsəlman alimlərin yekdil rə`yidir. Əgər peyğəmbər dövründə yaşamış əksər alimlər müəyyən

məsələlər barədə vahid rə`ydə olmuşlarsa, demək, onların rə`yi peyğəmbərin nəzərinə uyğundur. Demək icma yalnız peyğəmbər və imamların müasiri olmuş alimlərə aiddir.

Fiqh elminin dördüncü mənbəsi əqldir. Əgər əql yolu ilə gətirilən dəlildən yəqinlik hasil olarsa, əqlə əsaslanmaq olar.

## 20-Cİ DƏRS: FİQH ELMİ

Fiqh elminin tarixi bütün digər İslam elmlərindən qədimdir. Bu günkü dünyada hüquq adı altında birləşən müxtəlif sahələrə aid hüquqlar fiqh elmində İslam baxımından təsbit olunur. Amma fiqh elmində elə məsələlər var ki, dünya hüququnda təsbit olunmayıb. Məsələn, ibadət.

Əlbəttə ki, səhabələrdən olan alimlər fəqih adlandırılmırdı. Qeyd etdik ki, fiqh və fəqih kəlmələri Qur`an və sünnətdəki "təfəqqüh" kəlməsindəndir. Tarixi mə`lumatlara əsasən mə`sum imamlar öz tələblərini və bə`zi səhabələri fəqih adlandırardılar.

Qur`an və sünnətdə fiqh geniş elm kimi tanıtdırılsa da tədricən yalnız əməli hökmlərə aid edilmişdir. Qeyd etmişdik ki, İslam tə`limi üç hissədən ibarətdir. Bu üç hissənin sonuncusu əhkam və əməli məsələlər fiqh elmini təşkil edir.

Şiə fiqhinin tarixi on ikinci imamın (ə) kiçik qeybət dövrünə təsadüf edir. İmamların dövründə tanınmış şiə fəqihləri olsa da, onlar fitva verməkdən çəkinərdilər. Son imamın qeybətindən sonra isə vəziyyət dəyişdi.

Hicri üçüncü əsrdən başlayaraq fiqh elminin həyatında heç bir fasilə olmamışdır. Fiqhin ilkin mərkəzi Bağdad, sonra Nəcəf, sonra رجبل عامل daha sonra Hillə və Hələb olmuşdur. İran şəhərlərindən yalnız Qum şəhəri İslamın ilkin əsrlərində fiqh mərkəzi kimi tanınmışdır.

## 21-Cİ DƏRS: FİQHİN DÖRD BABI.

Fiqh elmi dörd babdır: İbadət, uqud (əqdlər), iqaat və əhkam (mühəqqiq hilminin nəzərinə görə).

İbadət babı on kitabdan ibarətdir:

1. "Təharət" kitabı; 2. "Səlat " (namaz) kitabı; 3. "Zəkat" kitabı; 4. "Xums" kitabı; 5. "Soum" (oruc) kitabı; 6. "E`tikaf" kitabı; 7. "Həcc" kitabı; 8. "Ümrə" (kiçik həcc) kitabı; 9. "Cihad" kitabı; 10. "Əmr be məruf və nəhy əz münkər" kitabı.

Uqud babı on beş və ya daha artıq kitabdan ibarətdir:

1. “Ticarət” kitabı; 2. “Rəhn” kitabı; 3. “Həcr” kitabı; 4. “Zəman” kitabı; 5. “Müflis” kitabı; 6. “Sülh” kitabı; 7. “Şirkət” kitabı; 8. “Müzaribə” kitabı; 9. “Müzariə” kitabı; 10. “Vədiə” kitabı; 11. “Ariyyə”kitabı; 12. “İcarə” kitabı; 13. “Vəkalət” kitabı; 14. “Vüquf və sədəqat” kitabı; 15. “Əl-sukna vəl-həbs” kitabı və s.

İqaat on bir kitabdan ibarətdir:

1. “Təlaq” kitabı; 2. “Xəl` vəl-mübarat” kitabı; 3. “Zihar” kitabı; 4. “İla” kitabı; 5. “Ləan” kitabı; 6. “Ütq” kitabı; 7. “Tədbir, mükatibə, istilad” kitabı; 8. “İqrar” kitabı; 9. “Cəlalət” kitabı; 10. “İman” kitabı; 11. “Nəzr” kitabı.

Əhkam babı on iki kitabdan ibarətdir:

1. “Seyd, zibh” kitabı; 2. “İt`ətə vəl-əşrəbə” kitabı; 3. “Qəsb” kitabı; 4. “Şuf`ə” kitabı; 5. “İhaul-məvat” kitabı; 6. “Ləqte” لقطه kitabı; 7. “İrs” kitabı; 8. “Qəza” kitabı; 9. “Şəhadət” kitabı; 10. “Hüdud və təz`irat kitabı”; 11. “Qisas kitab; 12. “Diyat” kitabı.

## 22-Cİ DƏRS: ƏMƏLİ HİKMƏT (HİKMƏTİ ƏMƏLİ)

hikmət və ya fəlsəfə qədim dövrdən iki hissəyə bölünmüşdür: Nəzəri hikmət və əməli hikmət.

Nəzəri hikmət ilahiyyat, riyaziyyat, təbiət kimi elmlərdən ibarətdir.

Əməli hikmət isə əxlaq, siyasət kimi sahələri əhatə edir. Bu elmdə insanın əqlən dərk edə biləcəyi vəzifələrdən danışırlır. Heç bir insan vicdan adlı hakimdən məhrum deyil. Bu hakim hər bir işdə “olar” və ya “olmaz” hökmünü verir. Vicdan insana hökm edir ki, o, doğruçu, xeyirxah, ədalətli, azad olmalıdır. Əksinə, insan yalançı, bədxah, zalım, qul olmamalıdır.

Əməli hikmət konkret üç şö`bədən ibarətdir: Əxlaq, ailə quruluşu, ictimai nizam.

Əxlaq insana necə yaşamağı öyrədir. Özünü əxlaq sisteminə malik məktəb kimi tanıtdıranların bir çoxunun iddiası əsassızdır. Çünki əxlaq elminin təqdim etdiyi sistem insanı müqəddəsliyə aparmalıdır. Bu gün dünyada təbliğ olunun bir sıra məktəblər “əxlaq sənin sevdiyin həyat tərzidir” şüarını verirlər. Guya, insanın xoşladığı həyat tərzi onun üçün ən üstün əxlaqdır. Belə çıxır ki, hərə bir şeyi sevirsə, hərənin də öz əxlaqı olmalıdır?! Əltəttə ki, bu pirinsip əslində bütün bəşəriyyəti əxlaqsızlığa aparır.

İslam dini fərdi və ictimai əxlaqın ilahi dəyərlərlə müəyyənləşdirilməsini doğru sayır. Belə bir əxlaqı vicdan təsdiq edir və belə bir insanı müqəddəsliyə aparır.

## 23-CÜ DƏRS: XOŞBƏXT OLMAQ ÜÇÜN.

İnsan Nyutonun qanunlarını, nisbilik nəzəriyyəsini bilmədən xoşbəxt ola bilər. Nə Nyuton, nə də Eynişteyn bu biliklərdən xəbərsiz insanları bədbəxt hesab etməmişlər.

Bu dini biliklər necə, bu biliklərə malik olmayan insan xoşbəxt ola bilərmi? Əgər insan hətta cəmiyyətdən ayrılıb, kimsəsiz bir səhraya pənah apardıqda belə öz qanunları ilə yaşaya bilmirsə, demək daha üstün qanunlara ehtiyac var. Yalnız ən qüdrətli varlığın çıxardığı qanuna tabe olan insan xoşbəxt ola bilər. Ən qadir varlıq isə Allah-təaladır və onun qanunları bütün varlıq aləmini öz tə`siri altında saxlayır. İnsanın səadət yolunu Allahdan yaxşı kim tanıya bilər?! Böyük yaradıcı isə göndərdiyi din vasitəsi ilə insana xoşbəxtlik yolunu göstərir. Demək dini biliklərdən məhrum insanın səadət yolunu tapması qeyri-mümkündür.

Amma ali dini təhsil almaq olduqca çətindir. Ötən 22 dərsdən mə`lum oldu ki, İslam elmləri nəhayətsiz bir ümmandır. Bu elmlərə yiyələnmək istəyənlər tarix boyu vətənindən və doğmalarından ayrılıb, uzaq ölkələrə hicrət etmiş, min bir əziyyətə qatlaşaraq İslami biliklərə yiyələnmişlər. Belə bir fədakarlıq çətin olsa da, insan zəruri dini biliklərdən xəbərsiz qala bilməz. Gündəlik mütaliə üçün vaxt ayırmaq olduqca zəruridir.

Biz İslam elmləri ilə xülasə şəkildə tanış olduq. İndi isə qarşıda sual durur: nə etməli?

## 24-CÜ DƏRS: DİN

Din bəşəriyyətə səadət yolunu göstərmək üçün Allah tərəfindən peyğəmbərlər vasitəsi ilə göndərilmiş həyat proqramıdır. Xoşbəxt olmaq istəyən insan bu proqrama əməl etməlidir. Dini əqidə insanın qəlbində yerləşmiş gizli nəzarətçi kimidir. O, insanı çirkin işlərdən çəkindirir, gözəl sifətlərə vadar edir.

Dünya həyatı öz eniş-yoxuşları ilə labirinti xatırladır. Din iki yol ayrıcında dayanmış insana doğru yolu göstərir. Dünya çətinlikləri ilə üzləşmiş insan iman qüvvəsindən güc alaraq Allaha üz tutur və Allahın yardımı ilə keçilməz sədləri aşır.

124 min peyğəmbərin sonuncusu Həzrət Məhəmməd (s), beş ilahi kitabın sonuncusu isə Qur`ani-kərimdir. Qur`ani-kərimin "Bəqərə" surəsində buyurulur: "Bu kitab heç bir şübhə olmayan və təqvalılara doğru yol göstərən kitabdır. (Təqvalılar) o kəslərdir ki, qeybə inanır, namaz qılır, və onlara verdiyimiz ruzilərdən ehsan edirlər." (a - 2 – 3)

İslam tə`limləri üç hissədən ibarətdir:

1. E`tiqadlar (üsuli-din: tövhid, ədl, nübüvvət, imamət, məad).
2. Əxlaq
3. Əməllər (fürui – din: namaz, oruc, xums, zəkat, həcc, cihad, əmr be mə`ruf, nəhy əz münkər, təvəlla, təbərra)

Bu üç elmi öyrənmək üçün bütün müsəlmanlar üçün fərizə, yə`ni vacib hesab olunur. Xoşbəxt olmaq istəyən insan dinin əsaslarına inanmalı, düzəldib dini hökmlərə əməl etməlidir.

## 25-Cİ DƏRS: ALLAHA İNAM (TÖVHİD)

Heç bir insan, hətta yaranmışların ən şərəflisi olan həzrət Məhəmməd (s) Allahın müqəddəs zatını dərk edə bilməz. İnsanın başa düşə biləcəyi yalnız Allahın adlarıdır. Allahın elə adları vardır ki, bu adları yalnız övliyalar dərk edə bilər.

Ad nişanə, əlamətdir. Bütün yaranmışlar, eləcə də bütün aləm Allahın müqəddəs zatının nişanələridir. Xaricdən səbəb olmadan bir şey digərinə çevrilə bilməz. Məsələn suyun buza dönməsi üçün xaricdən səbəb olmalıdır. Demək, heç nə öz-özünə yaranmır və bir haldan başqa hala keçmir. Bu deyilənlər varlıq aləminin yaranmasında yaradanın varlığına əqli dəlildir.

Əlbəttə ki, bir həqiqətin qəbulunda dəlillərə malik olmaq müsbət haldır. Amma Allaha inam məsələsində dəlil taxta ayaq kimi gücsüzdür. İnsanın vicdanı var və bu vicdan insanı daim Allaha iman gətirməyə çağırır. Təəssüf ki, həqiqətə gedən yolda nəfs istəkləri maneə olaraq qalır. Allah-təala peyğəmbər vasitəsi ilə kitab göndərərək insana əl tutur.

Qur`ani-kərimin "Ə`raf" surəsinin 59-cu ayəsində oxuyuruq: "(Nuh öz qövmünə dedi) Ey mənim qövmüm, Allaha ibadət edin, sizin ondan başqa tanrınız yoxdur": Eyni çağırışla uyğun surənin 73-cü və 85-ci ayələrində qarşılaşırıq.

İslam peyğəmbərinin ilkin şüarı da bu oldu: "Deyin: Allahdan başqa tanrı yoxdur!"

## 26-CI DƏRS: TÖVHİDİN DƏLİLLƏRİ

Əvvəlki dərslərdə qeyd etmişdik ki, dinin beş üslunu kor-koranə qəbul etmək olmaz və bu məsələdə təqlidə icazə verilmir. İnsan istənilən bir yolla dinin beş əsasına inam əldə etməlidir. Qur`an və hədislərdə Allahın birliyinə dəlil olacaq kifayət qədər buyuruqlar vardır.

"Bəqərə" surəsində oxuyuruq: "Sizin tanrınız vahid Allahdır və Ondan başqa tanrı yoxdur... Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə və gündüzün bir-birini tə`qib etməsində, insanlara fayda üçün dənizdə üzən gəmilərdə, Allahın yağış endirib ölü yeri diriltməsində, növbə-növ heyvanları ətrafa yaymasında, külələri dolandırmasında, göylə yer arasında Allaha tabe olan buludlarda ağıl sahibləri üçün dəlilər vardır:" (a. 163-164)

Təbiətə nəzər salın, yerin günəş, ayın yer ətrafındakı hərəkətini izləyin. Yerin günəş ətrafında fırlanmasından dörd fəsil, yerin öz oxu ətrafında fırlanmasıından isə gecə gündüz yaranır.

Günəş istisindən dənizin suyu buxarlanıb buludu dönür, havadakı istilik fərqindən yaranmış küləklər buludları dağlara qovur. Dağlara yağan qar və yağışlardan yaranmış çaylar yer üzünün yaşıl örpəyini dirçəldərək yenidən dənizlərə qayıdır.

Bütün bu qanunauyğunlular, kainatın obyektiv nizamlı quruluşu bir Allahın varlığına şəhadət vemirmi?! Tovuz quşunun günəş şüaları altda bərq vuran əsrərəngiz surəti böyük rəssamdan danışmırmı?!

Təssüf ki, bir dəlillə kifayətlənməli olduq...

## 27-Cİ DƏRS: ALLAHIN ADLARI

"Həşr" surəsinin 24-cü ayəsində buyurulur: "Ən gözəl adlar Ona məxsusdur." "Əllah" kəlməsi zatı addır və ondan 99 ad və sifət birləşir. İslamda əxlaq mövzusunun əsasını bu ad və sifətlərin tanınması təşkil edir. Hədislərdə buyurulur ki, özünüzü ilakhi əxlaqla zinətləndirin. İnsan ilahi sifətlərə yiyələnməklə həqiqi insanlıq məqamına nail olmalıdır. İdeal bir cəmiyyət qurmaq üçün bu cəmiyyətdə ilahi sifətlər cilvələnməlidir.

Məsələn, cəmiyyət sülhə eytiyaclıdır. Allahın "Səlam" adı bu sülhü ifadə edir.

Məsələn, fərdi və ictimai həyatda xoşbəxt olmaq üçün mehribanlıq və bağışlamaya ehtiyac var. Allahın "Rəhman və Rəhim" adları bu iki sifəti təcəssüm etdirir. Allahda olan elm, qüdrət, ədalət kimi sifətlər "sübutiyyə" və ya "cəmaliyyə" sifətləri adlanır. Amma elə sifətlər də vardır ki, Allah bu sifətlərdən uzaqdır. Məsələn, cism, zaman, məkan, mürəkkət kimi sifətlər Allahda yoxdur və belə sifətlər "səlbiyyə" və ya "cəlaliyyə" adlanır.

Bundan əlavə ilahi sifətlər zatı və fe`li olmaqla iki yerə bölünür. Zatı sifətlərə Allahın qüdrət, elm kimi sifətləri aiddir. Zatı sifətlərə Allahın qüdrət, elm kimi sifətləri aiddir. Zatı sifətlərin mövcudluğu heç nədən asılı deyil. Məsələ, başqa vücud olsa da, olmasa da Allah alimdir. Amma Allah bir iş görmədən fe`li sifət gerçəkləşməz. Məsələn, Allah məxluqu yaratdıqdan sonra "xaliq" sifəti gerçəkləşir.

## 28-Cİ DƏRS: ƏDALƏT (ƏDL)

İslam dinində beş əsas e`tiqaddan biri ədl, yə`ni Allahın ədalətli olmasıdır. Ədl Allahın kamal sifətlərindən biridir. Allah bütün işləri hikmətlə gördüyündən, alim olub bütün yaxşılıqları və pislikləri tanıdığından, zatən ehtiyacsız olduğundan Onun kimsəyə zülm etməsi qeyri-mümkündür.

İnsanı ədalətə çağıran Allah neçə ola bilər ki, kimsəyə zülm etsin. "Ər-rəhman" surəsinin 9-cu ayəsində buyurulur: "Tərəzini düz tutun və çəkini əskiltməyin"

Materialist əqidəli insanlar dünyada baş verən hadisələrin əsil mahiyyətini anlamadan bə`zən insana zülm olunduğunu iddia edirlər. Əslində isə zahirən zülm görünən hadisənin arxasında ilahi ədalət` dayanır. "Bəqərə" surəsinin 216-cı ayəsində Allah-təala buyurur: "Xoşlamadığınız bir çox şeylər var ki, sizə xeyrlidir". Başqa bir ayədə oxuyuruq: "Qiyamət günü ədalət tərəzisini qurarıq. Heç kəsə əsla haqsızlıq edilməz." ("Ənbiya", 47) Deməк, insan hadisələrin mahiyyətini dərk etmədən qərar çıxarmamalıdır.

Şəhid Dəstğeyb belə bir rəvayət nəql edir:

Peyğəmbərlərdən biri çay kənarından keçərkən uşaqların bir kor oğlanı suya batıraraq ona əziyyət verdiklərini görür. Peyğəmbər Allaha dua edir: "Pərvərdigara, bu uşağın gözünə şəfa ver ki, bu əziyyət çəkməsin. "Allah uşağa şəfa

verir. Gözləri açılmış oğlan ətrafındakı uşaqları suya batıraraq bir-bir boğmağa başlayır. Peyğəmbər duasına peşiman olub, səhvini anlayır.

## 29-CU DƏRS: PEYĞƏMBƏRLİK (NÜBÜVVƏT)

Atom hissəvcəyindən tutmuş ulduzlaradək bütün yaranmışlar ilahi nizam nizam əsasında kamilliyə doğru gedir. Toxumdan cücərən nihal qol-budaq atıb iri gövdəli ağaca çevrilir. Bal arısının həyatındakı ictimai nizam insanı heyran qoyur. Deməḱ, bütün mövcudların həyat və fəaliyyətində ilahi qanunlar hökm sürür. İnsan isə yaranmışların şərəflisi hesab olunur. Əgər belədirsə, insan qanunauyğun təkamüldən kənar qala bilərmi?!

İnsan azaddır və daim iki yol ayrıcındadır. Onun kamilliyi batil yox, haqq yolu seçib, davamlı hərəkət etməkdədir.

Yaranmış öz yaradıcısının qununlarına tabe olmadan səadətə çata bilməz. Bəs bu qanunları haradan əldə etməlidir? "Bəqərə" surəsinin əvvəllər zikr etdiyimiz 2-ci ayəsinə bir daha nəzər salaq:" ... təqvalılara doğru yol göstərən kitab" Bu kitabın ayələri 23 il ərzində Həzrət Məhəmmədə" vəhy olunmuşdur. Bütün peyğəmbərlərin vəzifəsi insanları doğru yola də`vət etməkdir.

Müxtəlif dini mənbələrdə bəşəriyyətə 124 min peyğəmbər göndərildiyi bildirilir. Onlardan beşi "ülul-əzm", yə`ni böyük peyğəmbər hesab olunur: Nuh (ə), İbrahim (ə), Musa (ə), İsa (ə)və Məhəmməd(s).

Peyğəmbərlik və ya nübüvvət tovhid və ədldən sonra 3-cü əsas e`tiqaddır. Hər bir müsəlmanın peyğəmbərlik həqiqətini qəbul edib, peyğəmbərlərin gətirdiyi ilahi göstərişlərə itaət etməsi vacibdir.

## 30-CU DƏRS: NÜBÜVVƏTİN DƏLİLLƏRİ

İstənilən birimiz savadsız bir dostumuzdan gözəl işvədə yazılmış, mntiqli bir məktub alsaq, bu məktubun başqa birisi tərəfindən yazıldığını iddia edərik. Bəs nə üçün əksəriyyəti savadsız, təhsil görməmiş peyğəmbərlərin əsrarəngiz, ilahi üslubda çağırışı insanları düşündürmür? Son peyğəmbər Həzrət Məhəmmədin (s) hansı hansı mühitdə boya-başa çatdığı hamıya bəllidir. Bə`zi düşündürücü məqamlara nəzər salaq:

1. Elmdən uzaq cahil ərəb mühitində ərsəyə çatmış həzrət Məhəmməd (s) təhsil almadığı halda, tanınmış dünya alimlərini heyran qoyan Qur`anı heç vəchlə özündən uydura bilməzdi. ″Yunis″ surəsinin 16-cı ayəsində həzrətin (s) dili ilə buyurulur: "Mən Qur`andan qabaq bir ömür sizin aranızda qalmışam, başa düşmürsünüzmü?"
2. Bəşər tarixində yalancı peyğəmbərlər çox olub. Yalançı peyğəmbərliyin əlamətlərindən biri xalqdan təmənna olub. Məkkə böyükləri peyğəmbərlik iddiasından əl çəkməsi müqabilində həzrət Məhəmmədə (s) vəzifə, var-dövlət təklif etdikdə həzrət (s) belə cavab verir: "And olsun Allaha, günəşi sağ, ayı da sol ovucuma qoysanız da, öz risalətimdən əl çəkməyəcəyəm." "Hud" surəsinin 51-ci ayəsində bu təmənnasızlıq öz əksini belə tapır: "Mən peyğəmbərliyimə görə sizdən əvəz istəmirəm."
3. Həzrət Məhəmmədin (s) peyğəmbərliyinə ən aşkar dəlil mö`cüzə hesab olunan Qur`ani-kərimdir. "İsra" surəsinin 88-ci ayəsində oxuyuruq: "Əgər insanlar və cinlər əl-ələ versələr belə, Qur`anın mislini gətirə bilməzlər."

## 31-Cİ DƏRS: İMAMLIQ (İMAMƏT)

Nübüvvət ilahi hökmləri təbliğdən ibarətdirsə, imamət bu hökmlərin cəmiyyətdə reallaşmasını tə`min edir. Həzrət İbrahim (ə) əvvəlcə nübüvvət, sonra isə imamət məqamına seçilmişdir. Allah-təala İbrahim peyğəmbərə (ə) buyurur: "Sənin insanlara imam etdim." ("Bəqərə", 124

Həzrət Məhəmməd (s) də təkcə nəbi yox, eləcə də imamlıq məqamına malik idi. Onun rehlətindən sonra imamlıq müssiyası başa çatmır. İlahi göstərişlərin cəmiyyətdə icrası üçün bu məqam son peyğəmbərin soyundan olan 12 mə`sum imama həvalə olunur. Müsəlmanların beş dini e`tiqadından biri 12 imamın ilahi məqamına inamdır. Həzrət Əli (ə) ilk imamlığa seçildiyi zaman ayə nazil olur: Bu gün dinimizin kamil etdim." (Maidə, 3) Məşhur "səqəleyn" hədisində Həzrət Məhəmməd (s) buyurur: "Sizin üçün iki əmanət qoyub gedirəm: Qur`an və əhli-beyt." Rəvayətlərə əsasən əhli-beyt həzrət Fatimə (s) və on iki mə`sum imamdır.

1. Həzrət Əmirəl-Mö`minin Əli ibni Əbu Talib (ə)
2. Həzrət İmam Həsən Müctəba (ə)
3. Həzrəti İmam Hüseyn Seyyidüşşühəda (ə)
4. Həzrət İmam Səccad (ə) (Zeynəl –abidin)
5. Həzrət İmam Məhəmməd Baqir (ə)
6. Həzrət İmam Cəfəri Sadiq (ə)
7. Həzrəti İmam Museyi Kazim (ə)
8. Həzrət İmam Riza (ə)
9. Həzrət İmam Məhəmməd Təqi (ə)
10. Həzrət İmam Əliyyən Nəqi (ə)
11. Həzrət İmam Həsən Əsgəri (ə)
12. Həzrət İmam Mıehdi (ə)

## 32-Cİ DƏRS: İMAM VƏ RƏHBƏRİN VƏZİFƏLƏRİ

Ayə və hədislərə əsaslanaraq İmam Rahil (r) "Yeni risalətdə" imam və rəhbərin vəzifələrini bəyan edir:

1. İmam əmələn İslam və Qur`anın aynası olmalı və xalq onun mə`rifətindən faydalanmalıdır.
2. İmam ictimai nizamı qorumalı, mə`suliyyətləri bölüşdürməlidir.
3. İmam təfriqələrin qarşısını alıb, birlik yaratmalıdır.
4. İmam kor-koranə təqlidlə mübarizə aparmalıdır.
5. Yaxşıya də`vət və pisdən çəkindirmə (əmr be mə`ruf və nəhy əz münkər)
6. Zərərli və murdar maddələr, qidalar qadağan olunmalıdır.
7. Xalqın istismarına verilməməlidir.
8. Tövhidə bağlı cəmiyyət tərbyə olunmalıdır.
9. İmam zülmə yol verməyib, zalımlarla mübarizə aparmalıdır.
10. İstimai ədalətin bərpası və hifzi
11. Günahkarlığın qarşısının alınması
12. Cəmiyyətdə dini hökmlərin icrası
13. Düşmənlə mübarizə
14. Gəlirlərin bölküsü
15. Cümə və cəmiyyət namazlarının bərpası
16. İmam məzlumları müdafiə etməlidir.
17. İmam dində bid`ətlərin, dəyişikliklərin qarşısını almalıdır.
18. Dinsizlərin dinə təcavüzünə cavab.

## 33-CÜ DƏRS: MƏAD (ÖLÜMDƏN SONRA HƏYAT)

Qur`ani kərimdə yüzdən çox ayədə məaddan, yə`ni ölümdən sonrakı həyatdan danışılır. Yaranış nizamının məntiqi davamı olan məada e`tiqad İslamda beşinci əsas e`tiqaddır.

İnsan bir damla sudan yarandığını unudubmu?! Doğrudanmı, heçdən yaranmış bir məxluq qəbirdəki çürümüş sümüklərdən yenidən diriləcəyinə inanmaya bilər?!

"O, yaradılışı başlayan, sonra onu bir daha təkrar edən kəsdir. Bu iş onun üçün çox asandır." ("Rum", 27) "...Göyləri və yerləri yaradan, bu yaradılışda acizlik göstərməyən Allah ölüləri diriltməyə də qadirdir." (Əhqaf," 33)

Məadın inkarı ilahi ədalətin inkarıdır. Əgər dünya həyatı ölümlə sonuclansaydı, hansı ilahi ədalətdən danışmaq olardı?! Millətlərin qanını sovurub, uca imarətlərini al rəngə boyayan zalımlar cəzalanmayacaqsa, həqiqət yolunda fədakarlıq nəyə lazımmış?! Yox! Belə olası deyil! "Hər kəs zərrəcə pislik etsə, cəzasını alacaqdır." ("Zilzal", 7 – 8)

...Bütün insanlar öz ruhunu nə zamansa Əzrail mələyə təslim edəcək. Qəbr evində ilkin sorğudan keçən insan bərzəx aləmində müvəqqəti sığınacaq tapacaq. Və`d olunmuş gündə qiyamət bərpa olacaq və ən ağır sorğular başlanacaq. Və nəhayət, kimi olduğu əbədi behiştə, kimi inanmadığı əbədi cəhənnəmə qovuşacaq!

## 34-CÜ DƏRS: ƏXLAQ.

Qeyd etmişdik ki, İslam tə`limi üç hissədən ibarətdir və onun ikinci hissəsi əxlaqdır. Əxlaq nəfsin tərbiyyəsi ilə məşğul olan olduqcu əhəmiyyətli bir elmdir. Dini mənbələrə istinadən mələklər yalnız əqlə, heyvanlar isə yalnız nəfsə malik olduğu tərbiyə edən insan mələkdən üstün, nəfsini öz başına buraxan insan isə heyvandan alcaqdır. Dinin əsaslarına inanıb, hökmlərinə əməl edən insan nəfsini tərbiyə edib, özünü gözəl əxlaqa çatdırmazsa, xoşa gəlməz aqibətlə üzləşər. Qur`ani-kərimin üç ayəsində tərbiyə sözü tə`lim sözündən əvvəl şilədilib (2: 151, 3: 164, 62 : 2)

İslam peyğəmbəri (s) buyurur: "Sizə əxlaqi dəyərləri tövsiyə edirəm." İmam Sadiq (ə) buyurur: "Allah təala peyğəmbərləri insanların əxlaqının tərbiyəsi üçün

göndərilmişdir.” Həzrət Əli (ə) buyurur: “Əxlaqi dəyərlər səadət yoludur.”

İmam Səccad (ə) belə dua edir: “Pərvardigara, daim pisliyə çağıran nəfsdən sənə şikayət edirəm.”

Bəli, insanın iki “mən”i var: Heyvan və insani. Heyvani “mən” itaət edən insanın istəyi yemək-içmək, şəhvət, geyim, ev-eşik, cah-cəlaldır. İnsani “mən” isə əqli düşünməyə, gördüklərindən nəticə çıxarıb, ilahi göstərişlərə itaət etməyə, əxlaqını zinətləndirməyə çağırır. “Nəcm” surəsinin 39-cu ayəsində buyurulur: “İnsana çalışqanlığından başqa bir şey qalmaz.”

## 35-Cİ DƏRS: VƏZİFƏ

İslam dinində təqdim olunmuş İlahi proqramda üç istiqamətdə vəzifələr müəyyənləşdirilmişdir:

1. Allah qarşısında vəzifələr.
2. Şəxsi vəzifələr
3. Cəmiyyət qarşısında vəzifələr.

Allahı tanıyıb Onun buyuruqlarına itaət etmək insanın ilkin vəzifəsidir. Səadət sorağında olan insan anlamalıdır ki, bu səadət Allah-təalanın ixtiyarındadır.

Predmeti tanımadan onun forma və məzmununu dəyişmək olmaz. Məsələn, tanımadığı iki metalı bir-birinə qaynaqlamaq istəyən insan müfəvvəq ola bilmir. Metala qaynağın hərarəti dəydikcə onu əridib mayeyə çevirir.

Allah öz yaratdığı insanı hamıdan tanıdığı üçün Onun göstərdiyi səadət yolu ən doğru yoldur. Amma ilahi yolda hərəkətə başlamalı olan insan özü də özünü tanımalıdır. Həzrət Əli (ə) buyurur: “Özünü tanıyan insan ən yüksək mərifət mərtəbəsinə çatıb”.

Axı öz iste`dadlarından xəbərdar insan necə ola bilər ki, heyvani həyat tərzində yaşasın?! Özündə əql qüvvəsini duyan insan tərəqqisiz dura bilərmi?! Özünü tanıyan insanın heyvan kimi uyub çılpaq və iffətsiz, yırtıcı və mərhəmətsiz həyat sürməsi qeyri-mümkündür. Öz insani şəxsiyyətini tanıyan insan özünə və özgələrə biganə qala bilmir, fərdi və ictimai vəzifələrinə məs`uliyətlə yanaşır.

## 36-CI DƏRS: FİZİKİ SAĞLAMLIQ.

İslam dini orqanizm üçün zərərli şeylərə qadağan qoyub. Bə`zi heyvanların əti, spirtli içkilər məhz bu məqsədlə haram buyurulur.

İnsan sağlamlığının əsas amillərindən biri təmizliyin qorunmasıdır. Həzrət peyğəmbər (s) buyurur: "Təmizlik imadandır" İmam Musa ibn Cə`fər (ə) buyurur: "Gündə bir dəfə hamada yuyunmaq qüvvəni artırır." Heç bir dində təmizliyə bu qədər əhəmiyyət verilməmişdir. Yeməkdən qabaq və sonra əlləri yumaq, ağız və burunun yaxalanması, saçın və saqqalın daranması dini gigiyenik göstərişlərdir.

İbadət zamanı bədənin, paltarın, namaz qılınan yerin təmizliyi, eləcə də, dəstəmaz və qüsl sağlamlığın qorunmasında böyük rol oynayır. Maraqlıdır ki, dəstəmaz və qüsldən qabaq bədəndə dərinin islanmasına mane olacaq heç bir ləkə olmamalıdır.

Həzrət Peyğəmbər (s) buyurur: "İnsanlara əziyyət vermək qorxusu olmasaydı, onlara dişlərini yumaq vacib buyurardılar"

İnsan nəfs aldıqda havadakı tozların qarşısını burundakı tüklər alır. İslamda göstəriş verilir ki, hər gün dəstəmazdan qabaq buruna su çəkib buraxmaqla bu çirklər təmizlənməlidir. Burunun bu üsulla təmizlənməsi "istinşaq" adlanır.

Fiziki sağlamalıq mühümdür. Həzrət peyğəmbər (s) buyurur ki, duaların qəbul məqamında Allahdan sağlamlıq istəyin.

## 37-Cİ DƏRS: RUHİ SAĞLAMLIQ

İnsan həyatı onun qəlbində və ruhundan aslıdır. İnsan cismini idarə edən, əzalara məqsədli hərəkət verən ruhdur. Deməк insanın səadəti onun qəlbinin necəliyindən asılıdır. Cism xəstələndiyi kimi ruh da xəstələnə bilər. "Şuəra" surəsinin 89-cu ayəsində buyurulur: "Sağlam qəlblə Allahın hüzuruna gələndən savay (kimsə fayda görməz)"

Ruhun xəstəliklərinə əhəmiyyət verməmək olmaz. Əgər orqanizmin xəstəliyi yalnız dünya həyatında əziyyətlidirsə ruhun xəstəliyi əbədi axirət əzabı ilə nəticələnə bilər. Xəstə qəlb ətrafda Allahın nişanələrini görüb, Onun hüzurunda olduğunu hiss edə bilmir. Belə insan bütün ömrünü küfr, günah, çaşqınlıq içində keçirir. Zahir gözü kor olan insan Allahı görə bilərsə, qəlb gözü kor olan insan Allahdan qəflətdə qalır. Belə insan qiyamət səhnəsinə kor gətirilər. "Taha" surəsinin 125-ci ayəsində oxuyuruq: "Pərvərdigara, məni nə üçün kor məşhur etdin, axı mənim gözüm vardı?!

Ayə və hədislərdə təkrar-təkrar xəbərdarlıq olunur ki, qəlbi yalnız iman nuru ilə işıqlandırmaq olar. Xəbərdarlıq olunur ki, küfr, təfriqə, günah, öz başınalıq insan qəlbini zülmətə bürüyən amillərdir.

İmam Baqir (ə) buyurur: "Qəlb üç cür olur: heç bir xeyri dərk etməyən dağınıq kafir qəlbi, xeyrlə şərin mübarizə meydanına çevrilmiş qara nöqtəli qəlb, heç zaman sönməyəcək bir çıraqla işıqlandırılmış mö`min qalbi.

## 38-Cİ DƏRS: ELMİN VƏ MÜƏLLİMİN ROLU

Ruhun ən gözəl sifətlərindən biri elmdir. Alim günəş, nadan isə zülmətə bənzədilmişdir. Yaranış sirlərini öyrənmədən, kairatdakı nizamdan xəbərdar olmadan, millətlərin keçmişini və bu gününü araşdırmadan insan öz qəlbini işıqlandıra bilməz.

İslam peyğəmbəri özü şəxsən mədrəsələri gəzər, hətta imtahanlara nəzarət edərdi. Rəvayətdə nəql olunur ki, Şəfa adlı qadın peyğəmbərin evinə gəlib, onun ailə üzvlərinə elm öyrədərdi.

"Mücadilə" surəsinin 11-ci ayəsində buyurulur: "Allah iman gətirənlərin və elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaldır". Rəvyətlərdə byurulur ki, alimin ölmü bir qəbilənin ölmündən daha zərərlidir. İmam Bəqir (ə) buyurur: "Elmindən istifadə olunan alim 70 min abiddən üstündür."

İslam nəzərincə insanın şəxsiyyəti onun elmi ilə müəyyən olunur. İslam peyğəmbəri (s) buyurur ki, elmi çox olanın dəyəri də çoxdur.

Hər bir insanın mə`nəvi diriliyi müəllimdən çox aslıdır. Ona görə də İslamda Müəllimə ehtiram vacib buyurulur. Həzrət Əli (ə) buyurur: "Mənə bir şey öyrədən şəxs məni özünə qül etdi". Şagird müəllimin ciddi rəftarına dözməli, ölümündən sonra ona dua etməlidir. Müəllim də öz növbəsində şagirdi müəyyən bir səviyyəyə çatdırmağa sə`y göstərməli, elmi qavrayışı aşağı olan şagirdləri həvəsdən salmamalıdır.

## 39-CU DƏRS: DAŞ QƏLB

İnsan fitrətən mehriban, qayğıkeş və səmimidir. O, nəinki insanların, hətta heyvanların əziyyət çəkməsindən narahat olur, başqalarının sevincinə qoşulur.

Fitrətini dinləyib, onun göstərişlərinə əməl edən insanın qəlbi günbəgün işıqlanır, mərhəmmətlə dolur. Amma əqlin, vicdanın fitrətin göstərişlərinə məhəl qoymayıb, nəfs istəklərinin ardınca gəzən insanın qəlbi daşlaşır. İlk əvvəl günahdan qorxan insan günah bataqlığında qərq olduqca xoşhal olur. Belə daş qəlbi mələklər tərk edir, şeytan ona hakim kəsilir.

Həzrət Əli (ə) buyurur: "Gözün yaşı qəlbin daşlaşmasından quruyur. Qəlb isə günahın çoxluğundan daşlaşır."

İmam Sadiq (ə) belə dua edir: "Pərvərdigara, sənə daş ürəkdən şikayət edirəm... Sənə sənin qorxundan ağlamayan gözdən şikayət edirəm..."

Qəlbini qorumaq istəyən insan böyük günahlardan, kiçik günahları davam etdirməkdən çəkinməlidir. Qəlbin ruhani hal tapmasında ibadət, dua, ehsan, mərhəmət, ədalət olduqca faydalıdır.

Peyğəmbərlər ilahi təbiblərdir. İnsan öz insanlığını yalnız ayə və hədislərə əməl etməklə qoruya bilər. Həzrət Əli (ə) buyurur: "Məhəmməd (s) nəfslərin müalicəsi üçün daim sə`y göstərin səyyar həkim idi". "Yunis" surəsində buyurulur: "Rəbbiniz tərəfindən nazil olan öyüd-nəsihət sinələrdəki dərdlərə şəfa, mö`minlərə mərhəmətdir." (a. 57)

## 40-CI DƏRS: BÖYÜK GÜNAHLAR

Bir günah o zaman böyük (kəbirə) sayılır ki, həmin günah müqabilində Qur`anda od və`d edilsin və ya uyğun günahın böyük hesab edilməsi üçün yetərli dəlil olsun. "Yeni risalədə" təqdim olunmuş ardıcıllıqla böyük günahları nəzərinizə çatdırırıq:

Allahın rəhmətindən ümidsizlik; özünü Allahın cəzasından amanda bilmək; Allah, peyğəmbər və imamın adından yalan danışmaq; insanı haqsız yerə öldürmək; ata-anaya itaətsizlik; yetimin malını zorla yemək; sehr və cadu; zina; həmcinsbazlıq; oğurluq; yalandan and içmək; şahidliyi gizlətmək; yalançı şahidlik; əhdi pozmaq; vəsiyyətə əməl etməmək; spirtli içkilərin qəbulu; sələmçilik; haram yemək; qumar; mürdar ət yemək; qan yemək; donuz əti yemək; şə`ri qaydada kəsilməmiş heyvanın ətini yemək; ölçüdə və çəkidə aldatma; müsəlman ölkəsinə hicrətdən sonra küfp ölkəsinə qayıdış; zalıma gömək; zalıma e`timad; üzürsüz səbəbdən haqqı ödəməmək; yalan; təkəbbür; israf; tələfçilik; xəyanət;

qeybət; söz gəzdirmək; faydasız oyunlarla məşğulluq; həcci kiçik iş bilmək; namazın tərki; zəkat ödəməmək; kiçik günahı davam etdirmək və s.

Allah-təala böyük günahlardan uzaqlaşacağı təqdirdə insana kiçik günahlarını bağışlayacağını və`d etsə də, kiçik günahları davam etdirmək özü böyük hesab olunur. İnsan bir işin günah olduğunu anlayan kimi dərhal tövbə etməlidir.

## 41-ci dərs: Nəfsin tərbiyəsi

Özünütərbiyənin iki mərhələsi vardır:

1. Əvvəlcə nəfs çirkinliklərdən, günahlardan təmizlənməlidir.
2. İkinci mərhələdə insan elm və maarifə yiyələnməklə saleh işlər görməli və əxlaqını zinətləndirməlidir.

Özünütərbiyə üçün hər iki mərhələ zəruridir. Çünki çirkinlik və günah içində olan nəfsin əxlaqi dəyərlərə yiyələnmək qabiliyyəti yoxdur. İnsan günaha yol verirsə onun qəlbi şeytanın əsarətindədir. Şeytanın əsarətində olan bir yer ilahi nurla işıqlana bilərmi? Mələklər belə bir qəlbə üz tutarmı? Demək, günahlardan təmizlənmək vacibdir.

Tutaq ki, insan çirkin işlərdən və günahlardan təmizləndi, bu iş təkamül üçün yetərli ola bilərmi? Əgər insan saleh işlər görmürsə, o necə kamilləşə bilər?!

Nəfsin tərbiyəsində çox mühüm bir nöqtəyə də toxunmağımız zəruridir. Həzrət Əli (ə) buyurur: “Təqva əxlaqın başlanğıcıdır”. Bəs təqva nədir? Bu sözün lüğət mə`nası qorunmaqdır. Amma ayə və hədislərdə bu söz daha geniş mə`na ifadə edir. Əgər insan öz həyatında konkret bir üsulla yaşamaq istəyirsə, bu üsulu zərərli bütün şeylərdən çəkinməlidir. Dində təqva itaətsizlik və günahlardan qorunmaqdır. İslam məktəbində mö`minlər üçün ən bəyənilmiş sifət təqvadır. Həzrət Əli (ə) buyurur: “Təqva xəstə qəlblərin şəfasıdır.”

## 42-Cİ DƏRS: NƏFSİN PAKLANMASI

Qeyd etdik ki, əvvəlcə nəfsi paklayıb, sonra onu zinətləndirmək lazımdır. Təsəvvür edin ki, gözəl bir otaqda uzun müddət əyyaş insanlar yaşayıb. Bu əyyaşlar otağın döşəməsini, divarlarını, hətta tavanını da çirkləndiriblər. Zibilənmiş otağı üfunət iyi götürüb. Sual olunur: bu

vəziyyətdə olan otaqda ləyaqətli bir insan yaşaya bilərmi? Cavab aydındır: təmizləmək ləyaqətli bir insanın bu otaqda yaşaması üçün əvvəlcə onu çirkabdan lazımdır. Yalnız bundan sonra döşəməyə gözəl xalılar sərib, tavandan gözəl çılçıraq asmaq olar.

Günahkar insanın qəlbi həmin çirkli otağın oxşarıdır. Günahkarların çirkaba batdığı qəlbə ilahi eşqi gətirmək qeyri-mümkündür .

Nəfsi təmizləmək üçün üç iş görülməlidir:

1.Nəfsi yanlış inamlar, səhv düşüncələr və xürafatdan təmizlənməlidir.

2. Nəfs əxlaqi çirkinliklərdən təmizlənməlidir.

3. İnsan günahlardan uzaqlaşmalıdır.

Yanlış inamlar nəfsi zülmətə bürüyür. Çirkin əxlaq heyvani hisləri gücləndirir, fərdi insani hədəflərdən uzaqlaşıdırır. İnsan günaha batdıqca təkamül yolundan uzaqlaşıb uçuruma doğru gedir.

Əgər insan bir Allaha iman ibadət etdiyi halda kamilləşə bilmirsə bunun iki səbəbi var: Əvvəla, insan əxlaqından qüsurları görmür, ikincisi, əxlaqi nöqsanları mühüm saymır.

## 43-CÜ DƏRS: XƏSTƏ NƏFSİ NECƏ TANIMALI?

İnsan öz nəfsindəki xəstəlikləri bir sıra yollarla tanıya bilər:

1. İnsan öz əqlini işə salmalıdır. İnsan əql vasitəsi ilə düşünür, həqiqətləri dərk edir, yaxşını pisdən ayırır. İnsan Allahı, öz dini vəzifələrini əql yolu ilə tanıyır. "Yunis" surəsinin 100-cü ayəsində buyurulur: "Allah əzabı düşünüb anlamayanlar üçün qərar verir"
2. Əməl etməzdən qabaq düşünmək lazımdır. İnsan özünə söz verməlidir ki, yaxşıca düşünməmiş heç bir iş görməyəcək. Həzrət Peyğəmbər buyurur: "Tələskənlik insanları həlak etdi. Əgər onlar hər işdən qabaq düşünsəydilər, həlak olmazdılar.
3. İnsan düşünərkən əqlin məsləhətlərini nəfsin məsləhətlərindən fərqləndirməli və nəfsi susdurmalıdır. Həzrət Əli (ə) buyurur: "Mö`min daim öz nəfsindən bəd gümandır və həmişə onda eyb axtarır."

4. Nəfsini paklandırmaq istəyən insan həqiqi ruhaniyə müraciət etməlidir. Bu işdə əxlaq aliminin göməyi olduqca faydalıdır.
5. Bu işdə bilikli və xeyirxah dostdan yardım almaq lazımdır. Yaxşı dost ilahi ne`mətdir. O, səni eyblərindən vaxtında xəbərdar etməlidir.
6. Başqalarının eyblərindən ibrət götürmək lazımdır.
7. Düşmənlərin sənin eyblərini açıqlamasından istifadə edib, bu eybləri nəzərdə saxlamalısan.
8. İbadətdə süstlük, dünya ləzzətlərinə həvəs qəlb xəstəliyinin əlamətlərindəndir. Əlamətlərə diqqətli olmaq lazımdır.

## 44-CÜ DƏRS: NƏFSƏ NƏZARƏT

Bütün yaxşılıqların və pisliklərin səbəbkarı nəfsdir. Nəfs yolunu seçsə insan mələklərdən də ucu məqama qalxar. İnsanın dünya və axirət səadəti birbaş ondan asılıdır.

İnsanda mövcud olan heyvani istəklər yalnız ifrat halda zərərlidir. Heyvani istək adlandırdığımız cinsi istək olmasa insan nəsli davam edə bilməz. Demək, bu istəkləri boğmaq yox, insani axarına yönəltmək lazımdır.

Nəfs istəklərinə nəzarətdə əql müstəsna rol oynayır. O, dini göstərişlərdən istifadə edərək nəfsi ifrat və təfritdən qoruya bilər. Amma əqli hakimiyyətə gətirmək asan iş deyil."Əmmarə" nəfs adlı güclü bir düşmən əqllə üzbəüz dayanmışdır. "Yusuf" surəsinin 53-cü ayəsində buyurulur: "Allahın rəhm etdiyi istisna olmaqla, nəfs həmişə pisliyə əmr edəndir." İslam peyğəmbəri buyurur: "Sənin ən böyük düşmənin nəfsdir."Həzrət Əli (ə) buyurur: "Əql və şəhvət bir-birinə ziddir. Elm əqli, həvəs şəhvəti müdafiə edir. Nəfs bu iki qüvvənin mübarizə meydanıdır.

Bəli, əql gözəl hakimdir. Amma onun yardıma ehtiyacı var. Əgər insan öz varlığının idarəsini əqlə tapşırarsa, böyük bəlalardan qurtula bilər. Əli (ə) buyurur: "Ehtiyatlı olun ki, şəhvətlər qəlbinizə hakim kəsilməsin"; "Nəfs istəklərini cilovlamayan insan əqlə malik olmayacaq"; "Sevgi, qorxu, şəhvət, qəzəb, razılıq halında nəfsinə hakim olan insana cəhənnəm odu haramdır."

## 45-Cİ DƏRS: BÖYÜK CİHAD

İnsanın ən böyük düşməni nəfsdir. O, daim əqllə savaşdadır. Nəfslə mübarizə insan talehində olduqca

əhəmiyyətli məsələdir. Nəfsini məğlub etmiyən şəxs həqiqətə zidd düşüncələri və əməlləri hesabına cəhənnəm odunu dadasıdır. Nəfslə mübarizə o qədər mühmdür ki, İslam peyğəmbəri (s) silahlı cihadı kiçik cihad, nəfslə cihadı isə böyük cihad adlandırmışdır.

Həzrət peyğəmbər (s) həzrət Əliyə (ə) vəsiyyətində buyurur: "Ya Əli, ən böyük cihad odur ki, insan sübhü elə bir halda aça kimsəyə zülm etmək fikrində olmaya."

Nəfslə cihadın silahlı cihaddan üç üstünlüyünü qeyd etmək olar:

1. Bütün ibadətlərdən, hətta silahlı cihadın özündə də nəfslə mübarizəyə ehtiyac var. Silahlı cihadda, namazda və digər ibadətlərdə insanın niyyəti Allahla yaxınlıq olmalıdır. İnsan bu niyyəti qorumaq üçün daim nəfslə mübarizə aparmalıdır.
2. Silahlı cihad həmişə olmur, amma nəfslə cihad daimidir. Silahlı cihad kifayi vacibdir. Yə`ni ordunun ehtiyacı ödəndikdən sonra kimsə üçün cihad vacib olmur.

Amma nəfslə cihad eyni vacibdir. Yə`ni bu vəzifə bir an olsun belə insanın öhdəsindən götürülmür.

3. Silahlı cihadda insan şəhadətə yetməklə ən ali məqama nail olur. Amma nəfslə cihad ömrünü sonunadək əzab və əziyyətlərlə müşayiət olunur.

## 46-cı dərs: Allah cihada çağırır.

Sözsüz ki, nəfslə cihad olduqca çətindir. Bu işdə böyük istiqamətə, dözümə, agahlığa ehtiyac var. Amma insan öz səadəti yolunda tər tökməsə bədbəxtliyə düçar olar. Eləcə də, unutmaq olmaz ki, öz nəfsi ilə cahada qalxmış insana Allah yardımçıdır. "Ənkəbut" surəsinin 69-cu ayəsində buyurulur: "Bizim yolumuzda çalışanları öz yollarımıza mütləq yönəldərik. Çünki Allah yaxşı iş görənlərlədir."

İmam Sadiq (ə) buyurur: "Xoş o bəndənin halına ki, Allahın razılığı üçün öz nəfs istəkləri ilə cihad edir" İnsana Allah arasında ən qalın hicab, pərdə əmmarə nəfsdir. Bu hicabı aradan qaldırmaq üçün Allahın zikri, orucun aclıq və susuzluğu, ibdətin yuxusuzluğundan güclü silah yoxdur. İnsanlıq yolunda qədəm atan insan Allahın yardımından bəhrələnir. Həzrət Məhəmməd (s) o qədər namaz qılardı ki, mübarək ayaqları ağrayardı. O, öz ibadəti ilə ümmətə nümunə göstərər, onları zəhmətə, dözümə çağırardı. Bu

dözümsüz, zəhmətsiz ibadətin şirinliyini duymaq mümkünsüzdür.

Nəfslə cihad salahlı cihad kimidir. Hər zərbədən sonra düşmən zəifləyir. Allah təala buyurur: "Ey iman gətirənlər, əgər Allaha yaxın olsanız, Allahda sizə yardım edər və qədəmlərinizi sabitləşdirər."

Əksinə, insan süslətdikcə düşmən daha da cəsarətlənir və insanın qəlbi qarış-qarış onun əsarəti altına düşür.

## 47-Cİ DƏRS: İNSAN ÖZ TƏBİBİDİR.

Peyğəmbərlər, mə`sum imamlar bəşəriyyətin tərbiyəsi üçün göndərilsələr də əsil məs`uliyyət insanın öz üzərinə düşür. İnsan nəfs xəstəliklərini, bu xəstəliklərin əlamətlərini, bu xəstəliklərin müalicə yollarını öyrətdikdən sonra özü özünə əlac etməlidir. İnsan öz xəstəliyini başqalarından daha yaxşı hiss edir. Əgər o öz nəfsini gözləməsə, öyüd-nəsihətin heç bir faydası yoxdur.

İslam dininə görə nəfsin müalicəsi daxildən başlanmalıdır. Bu, İslamın mühüm tərbiyə üsullarından biridir.

"Qiyamət" surəsinin 14-cü ayəsində buyurulur: "Doğrusu, insan öz nəfsini daha yaxşı tanıyır."

Həzrət Sadiq (ə) buyurur: "Sən öz nəfsinin təbibisən, Sənə dərd və onun əlamətləri bəyan edilmiş, davası tanıtdırılmışdır"; Hər bir insanın daxilində nəsihətçin olsa, daim yaxşılıq içində olarsan."

Həzrət Əli (ə) buyurur: "Ən aciz insan nəfsinin islah edə bilməyən insandır"; "İnsan öz nəfsinə sahib durmalı, daim qəlbini və dilini qorumalıdır."

Hər hansı bir günahla üz-üzə dayanmış insanı bu günahdan kim qurtara bilər?! O günahı tanıyır, bu günah müqabilində itirəcəklərindən xəbərdardır. O bilir ki, günahın ləzzəti bir anda ötüb keçəcək, ağrıları isə əbədi yük olacaq və əql "günahdan çəkin" deyir.

## 48-Cİ DƏRS: ÖZÜNÜTƏRBİYƏNİN İLK MƏRHƏLƏSİ

Günah və çirkin əxlaqdan çəkinib, ruhi sağlamlağı qorumaq öünütərbiyədə ən asan yoldur. Günaha batmamış qəlb hələ ki, öz nurunu saxlayır. İnsanı gözəl işlərə vadar edən amillərdən biri bu nurdur. Nə qədər ki, qəlbə zülmət çökməyib şeytan üçün yol bağlıdır. Günaha adət etməmiş

insan üçün günahdan çəkinmək daha asandır. İstənilən bir səbəbdən hər hansı bir günahdan uzaq olmuş insan bu paklığı qənimət bilib qorumalıdır.

Günaha yolverən insan qəlbinin qapısının şeytana açıb. Şeytan qəlbə daxil olduqdan sonra günahı tərk etmək olduqca çətindir. Şeytan və əmmarə nəfs bir-iki dəfə günaha batmağı insana əhəmiyyəstsiz göstərməyə çalışır. Öz xoşbəxtliyinə biganə olmayan insan anlamalıdır ki, bir dəfə günaha batmaqla qəlbindəki paklığı itirəcək.

Həzrət Əli (ə) buyurur: "Heç bir pis iş və sözə yol vermə"; "Nə qədər ki, əmmar nəfs güclənməyib ona qələbə çal. Hər günahınla güclənən nəfs səni istədiyi tərəfə çəkəcək, sən isə ona müqavimət göstərə bilməyəcəksən"; "Günaha adət işğalçı bir düşməndir"; "Əmmarə nəfslə düşmənlə vuruşduğun kimi vuruş"; "Günah etməmək tövbə etməkdən daha asandır."

Cəmiyyətdə yolxucu xəstəliklərin qarşısını almaq üçün profilaktik tədbirlər görülür. Çünki bu xəstəliklərlə bir nəfər yoluxduqdan sonra onların qarşısını almaq çətin olur. Paklığı qorumaq çirkabı təmizləməkdən qat-qat rahatdır.

## 49-CU DƏRS: GÜNAHIN BİRDƏFƏYƏ VƏ TƏDRİCƏN TƏRKİ

Günahdan qoruna bilməyib, paklığını itirmiş qarşısında iki yol var: O ya bir dəfəyə günahdan uzaqlaşmalı, bu mümkün olmadıqda tədricən, pillə-pillə nəfsini təmizləməlidir.

Günaha batmış adam üçün ən yaxşı yol qəlbində inqilab qopararaq bütün günahlardan və əxlaqi nöqsanlardan bir dəfəyə uzaqlaşmaqdır. Qəti qərar gələrək şeytanları qəlbdən qovub, qəlbinin qapılarını onların üzünə bir dəfəlik bağlayan şəxs rahatlığa çıxır. Cəmiyyətdə olmazın günahlarına batmış bə`zi insanların həqiqi tövbə ilə şər yoldan bir dəfəlik uzaqlaşdığına az da olsa təsadüf edirik. Günahkar insan üçün qəti bir söz, kiçik bir hadisə, ilahi bir yuxu təkan ola bilər.

Allahın saleh bəndələrindən olan məşhur övliya Bişr Hafi haqqında belə yazırlar: Bişr Hafi evini günah yuvasına döndərmiş eyş-işrət əhli idi. Bir gün yoldan ötən İmam Musa ibn Cə`fər (ə) onun evindən gələn səs-küyü eşidib qapıdakı kənizdən soruşur: "Bu evin sahibi azaddır, yoxsa qul? Əgər qul olsaydı, ağasından qorxardı." Kəniz imamın

bu sözünü dərhal Bişrə çatdırır. Mə`sum imamın sözləri Bişrin qəlbində qiyam qaldırır, o tövbə edib övliyalıq dərəcəsinədək yüksəlir. Günahdan bir dəfəlik uzaqlaşa bilməyən insan bu işi tədricən görməlidir. Hər tərk olunmuş günah qəlbin bir qara nöqtəsini təmizləyir, bir şeytan qovulur və onun yerinə bir mələk gəlir.

## 50-Cİ DƏRS: TƏFƏKKÜR VƏ CƏZALANDIRMANIN KÖMƏYİ

Özünütərbiyədə insanın ilk yardımçısı təfəkkür, düşüncədirƏgər düşyaya başı qatışmış insan ölümü, qəbr sorğusunu, Allahın cəzasını unudursa, o özünə nəzarət edə bilməz. Ölümü unutmaq qəflətdən doğur. Qəflətdə olan insan günahlarına, əxlaqi nöqsanlarına biganə qalır. Qəflət, özündən xəbərsizlik dərin ruhu xəstəliklərdəndir. Bu dərdin dəvası insanın öz aqibəti barədə düşünməsidir. Həzrət Əli (ə) buyurur: "Hər kəs qəlbini düşüncə ilə abad etsə, batin və zahir əməlləri yaxşılaşar".

İnsanın özünü tərbiyəsində səmərəli tədbirlərdən biri onun yol verdiyi günaha görə özünü cəzalandırmasıdır. Günahları tərk etmək qərarına gəlmiş insan nəfsinə xəbərdarlıq edir ki, əgər günaha yol versən, səni cəzalandıracağam. Məsələn, əgər qeybət etsən, bir gün oruc tutacaq və ya bir həftə zərurətdən artıq danışmayacağam. Əgər insan hər günaha yol verəndə bir neçə saat yandırıcı yay günəşinin altında dayanmaqla cəhənnəm odu haqqında düşünsə, çox faydalı olar.

Əmmarə nəfsi bu cür cəzalandıran insan şeytanın nüfuz yollarını bağlayır. Maraqlıdır ki, evdə görpəni kiçik səhvinə görə cəzalandıran valideyn nə üçün böyük günahlara görə özünü cəzalandırmır?!Həzrət Əli (ə) buyurur: "Nəfsi cilovlamaql, pis adətdən uzaqlaşmaq üçün ac qalmaq çox faydalıdır"; "Nəfsini daim cəzalan4458dıran insan xeyir tapacaq."

## 51-Cİ DƏRS: İNSANİ DƏYƏRLƏRƏ HÖRMƏT

İnsan yaranmışların şərəflisi olduğuna diqqət etsə, çirkin əxlaq və günahdan qaçar. Özünü insan adlandıran varlıq heyvani hislərə necə təslim ola bilər?!

Həzrət Əli (ə) buyurur: "Özünü əziz tutan insan üçün şəhvətlər ləyaqətsiz görünür."

İmam Səccadan (ə) soruşdular ki, ən dəyərli insan kimdir? Həzrət cavab verdi ki, ən dəyərli insan özünü dünyadan dəyərli biləndir.

Ruhani kəramətlərə diqqət özünütərbiyədə faydalıdır. İnsan özünə müraciət edə bilər ki, axı sən qüdsi gəlmisən, axı sən Allahın xəlifəsisən, axı sən əbədi həyat üçün yaranmısan, sənə heyvani hisslərə tabe olmaq yaraşırmır?!

Hər bir pis sifətdən qurtarmaq üçün onun ziddi olan gözəl sifəti gücləndirmək lazımdır. Əgər bir nəfərə qarşı paxıllıq hissi varsa, bu hissi boğmaq üçün həmin şəxsə ehtiram göstərib, ona yaxşılıq etmək lazımdır. Ümumiyyətlə, nəfsin çirkin istəklərinə "yox" deyib, tədricən onun kökünü qurtmaq lazımdır. Nəfsin xoşlamadığı yaxşı işlərə özünü məcbur etməklə yaxşılığa adət etmək gərəkdir.

Həzrət Əli (ə) buyurur: "Nəfsini yaxşı işlərə məcbur et"; "Nəfsini yaxşı işlərə adət etdir ki, axirətin abad olsun"; "Nəfsani şəhvətlər ölrürücü xəstəlikdir. Onun ən yaxşı dərmanı səbr və özünü saxlamaqdır".

## 52-Cİ DƏRS: PİS DOST VƏ PİS MÜHİT

İnsan tə`sir altında dəyişkən xarakterə malikdir. O, Ünsiyyətdə olduğu insanların xasiyyətini götürür, mühitin tə`siri altında rəngini dəyişir. Pis əxlaqlı, günahkar insanlarla dostluq insanın bəlasıdır. İnsan dost olduğu məhəbbət bağladığı insanın nöqsanlarını, adətən, nöqsan kimi yox, yaxşı sifət kimi qəbul edir.

Həzrət Əli (ə) buyurur: "Müsəlman günahkarla dostluq etməməlidir. Çünki günahkar dost öz pis işlərini yaxşı qələmə verir və çalışır ki, hamı onun kimi olsun. Pis dostda nə dünya, nə də axirətdə faydası var. Onunla get-gəl abırsızlığa səbəb olur."

İmam Sadiq (ə) buyurur: "Günahkar, axmaq və yalancı insanlarla dostluq insana yaraşmaz."

Həzrət peyğəmbər (s) buyurur: "İnsan öz dostunun dinində olasıdır."

İnsan üçün daim günah qorxusu var. Əmmarə nəfs bir an olsun belə onu rahat buraxmır. Qəlb cismin hakimiyyət mərkəzidir. O mühitdən tə`sirlənir. O, mə`nəviyyat, ibadət, ehsan məclislərində yaxşılığa həvəslənir. Əksinə, günah məclisinə düşən kimi günaha maraq göstərir.

Nəfsini tərbiyə etmək qərarına gəlmiş insan gözünü və qulağını şəhvət doğuran mənzərələrdən və səslərdən

qorumalıdır. Şərab, qumar, rəqs olan məclislərdə əmmarə nəfs tüğyan edir. Ona görə də İslam bizə tapşırır ki, günahkar mühitdən uzaq olaq. Həzrət Əli (ə) buyurur: "Günah haqqında düşünmək insanı günaha vadar edir."

## 53-CÜ DƏRS: EQOİZM "ÜMMÜL-FƏS

Eqoizm ifrat özünə məhəbbət, özünü istəmədir. Əxlaq alimləri eqoizmi "ümmül-fəsad", yə`ni "fəsadların anası" adlandırmışlar.

Qeyd etmişdik ki, insanda iki "mən" mövcuddur: İnsani "mən" və heyvani "mən" İnsani mən ilahi aləmdən Allahın xəlifəsi olmaq üçün nazil edilmişdir. Ona görə də bu mən elm, mərhəmət, ehsan, kamillik sorağındadır. Heyvani mənin bütün istəkləri heyvanidir: diri qalmaq, qarnını doyurmaq, şəhvətini söndürmək və s. Nə insani, nə də heyvani istəklər tə`rif və ya məzəmmət olunmur. Əsas məsələ budur ki, bu qüvvələrə əql, yoxsa əmmarə nəfs başçılıq edəcək. Əgər əql hakim olsa, heyvani meyllər də ümumi insanlıq məqsədlərinə xidmət edəcək. Amma hakimiyyətə nəfs gəlsə insanda heyvani mən baş qaldıracaq və bu heyvani mən yalnız öz heyvani istəkləri üçün çalışacaq. Eqoizm budur!

Eqoist insan vəzifə, var-dövlət, tə`rif qazanmaq üçün bütün insani dəyərləri ayaq altına alır. Bu insan əmmarə nəfsin quludur. O, nəfsi razı salmaq üçün bütün günahlara batmağa hazırdır. Elə ona görə də eqoizm günahların anası adlandırılır.

Eqoizmin ən yüksək mərtəbəsi özünə pərəstişdir. Bu mərtəbəyə çatmış insan tədricən allahlıq iddiasına düşür. Məsələn, "Qur`anın filan ayəsi ağılabatan deyil", deyir. Allah təala belə insanları "nəfsini özünə tanrı edənlər" adlandırır. ("Fürqan", 43)

## 54-CÜ DƏRS: DÜNYAGİRLİK.

Ayə və rəvayətlərdə dünyaya bağlılıq ciddi məzəmmət olunmuşdur. "Ali-İmran" surəsinin 185-ci ayəsində buyurulur: "Dünya həyatı aldadıcı matahdan başqa bir şey deyil." Başqabir ayədə oxuyuruq: "Dünya həyatı oyun-oyuncaqdan başqa bir şey deyil və təqvalılar üçün axirət evi daha faydalıdır. Heç düşünmüsünüzmü? ("Ən`am, 32) "Hədid" surəsinin 20-ci ayəsində isə belə buyurulur: "Bilin

ki, dünya həyatı oyun-oyuncaqdan, bər-bəzəkdən, var-dövlət və övladı artırıb öyünməkdən başqa bir şey deyil"

Həzrət Əli (ə) buyurur: "Mən sizi dünyadan həzər etməyə çağırıram. Çünki o, şirin və gözəl görünür"; "Dünya arzular evidir. Bir zaman fani olar və əhli ondan köçər. O, şirin və gözəl görünər, istəyənlərə tərəf tələsər, baxanların qəlbinə sevgisini salar."

Əmirəl-mö`minin Əlinin (ə) "Nəhcül-bəlağə" kitabında dünya və dünyaya bağlı insanlar məzəmmət olunur. Həzrət (ə) insanların müvəqqəti dünyaya yox, əbədi axirət haqqında düşünməyə çağırır. O, insanları iki dəstəyə bölür: qəlbi nəfs istəkləri ilə dolu dünya əhli və Allah eşqinin sorağınca gəzən axirət əhli. Bu iki dəstənin hər birinin öz yaşayış proqramları vardır.

"Ali İmran" surəsinin 145-ci ayəsində buyurulur: "Bu dünyanın mənfəətini istəyənlərə dünya mənfəətindən, axirət savabı istəyənlərə isə axirət savabından verərik".

Başqa bir ayədə oxuyuruq: "Var-dövlət və övladlar dünya həyatının bəzəyi, saleh əməl isə daha xeyirlidir"(kəşf, 46).

## 55-Cİ DƏRS: DÜNYA

Sual oluna bilər ki, əgər dünya pisdirsə, Allah onu nə üçün yaradıb? Xeyr, dünya yox, dünyaya pis olmaq pislənilib. Dünyada gördüyümüz bütün ne`mətlər üçün var-dövlət qətiyyn qorxulu deyil. Əksinə, belə insan var-dövlətdən istifadə edərək öz axirəti üçün hazırlıq görür Amma dünyaya qul olan insan üçün halal haramın fərqi yoxdur.

İslam peyğəmbəri (s) buyurur: "İbadət yetmiş hissədir və onun ən üstünü halal ruzi axtarmaqdır." Rəvayətlərdə insanlar əkinçiliyə, ticarətə, bir sözlə, işə təşviq olunur.

Məzəmmət olunmuş dünya haqqında isə həzrət Əli (ə) buyurur: "Məbada, dünyaya gönül verəsən. Çünki bütün günahların kökü, bütün bəlaların əvvəli dünya məhəbbətidir."

Maraqlıdır ki, rəvayətlərdə insana ailə -övladını sevmək tövsiyə olunur. Peyğəmbər və imamların da həyatında bu sevginin nümunələri ilə rastlaşırıq. Bir hədisdə buyurulur: "İnsan dünyanın övladıdır və kimsə və kimsə anasını sevdiyi üçün qınamaz." Demək, söhbət müsbət sevgidən yox, dəlicəsinə vurğunluqdan gedir. İnsan dünya və onun ne`mətlərini o həddə sevməməlidir ki, Allahı və öz

vəzifələrini unutsun. İmam Baqir (ə) buyurur: "Dünya axirət üçün ən böyük köməkdir." Bir sözlə, dünya ötəridir, axirət isə əbədi. Ötəri dünyadan əbədi axirət üçün düzgün istifadə etmək lazımdır.

## 56-CI DƏRS: TƏQVA VƏ GUŞƏNŞİNLİK.

Əvvəlki söhbətlərimizdə təqvanın əhəmiyyəti barədə danışmışdıq. Demişdik ki, təqva özünü qoruma, nəfsə nəzarətdir. Həzrət Əli (ə) buyurur: "Sizi təqvaya çağırıram. Çünki təqva nəfsi yaxşılıqlara tərəf cilov kimidir."

Müttəqi, yə`ni təqvalı insan günahdan, günahkarla yadaşlıqdan, günah olan mühitdən çəkinir. Bə`ziləri elə başa düşür ki, ictimai vəzifə daşımaqdan, cəmiyyətin həyatında iştirak etməkdən çəkinmək təqvadır. Əslində cəmiyyətdən kənarlaşmaq təqva yox, guşənişinlikdir. İslam dinindən kənarlaşmaq təqva yox, guşənişinlikdir. İslam dinində röhbaniyyət adlandırılan guşənişinlik dini nöqteyi-nəzərdən məqbul sayılmır. İslam dini heç bir halda tərki-dünyalığı bəyənmir. İnsan ictimai məs`uliyyəti qəbul etməli və bu işin icrasında nəfsinə nəzarət edib, günahdan çəkinməlidir. İslam dinində Allahın razılığını qazanmaq məqsədi ilə cəmiyyətin həyatında iştirak etmək günah yox. Savablı bir əməldir. İslamda halal ruzi qazanmağın savabları haqqında buyuruqlar çoxdur. Təqvalı olmaq xatirinə evdən bayıra çıxmayıb, başqalarından ruzi gözləmək mö`minə yaraşan sifət deyil, Mö`min halal ruzi dalınca gəzməli, eləcə də, ictimai vəzifələrini yerinə yetirməlidir. Bütün bu proseslərdə nəfsi günahdan qoruma təqvadır.

Dünya həyatını yaşa, dünyanın abadlığı üçün çalış, amma dünyaya aldanıb, ona qul olma!

## 57-Cİ DƏRS: TƏQVA AZADLIĞA ZİDD DEYİL.

Bə`ziləri elə düşünə bilər ki, təqva insanın azadlığını məhdudlaşdırır. Təssüf ki, İslam haqqında da bu fikirdə olanlar var. Amma lazımdır ki, bütün kainatda mütləq qanunlar hökm sürür. Yer kürəsi günəşə yaxınbaşarsa od tutar, uzaqlaşarsa buzlaşar. Yer öz orbitindən çıxıb "azad" olarsa, həyat bir anda məhv olar. Demək, hər bir varlığın "orbiti" var və bu "orbitdən" çıxan varlıq məhvə məhkumdur.

Bu günkü dünyanın ən aktual mövzusu olan demokratiya mütləq azadlıq mə`nasında başa düşülməməlidir. İnsan

xoşbəxt olmaq istəyir. Demək, onun məqsədi var. Məqsəd varsa, məqsədə aparan yol da var. Bu yoldan çıxmaq azadlıq yox, nəfsin əsarətinə düşməkdir. Bu gün hicabı, örtüyü qadın azadlığı üçün buxov bilənlərlə çiyin-çiyinə qadınlıq haqqı tələb edən mavi kişilər dayanır. Kişinin qadınlıq etməsi azadlıqdırmı?! Qadının fahişəlik haqqı varmı?!

Həzrət Əli (ə) buyurur: "İslamdan üstün şərafət, təqvadan üstün izzət yoxdur". Bə`li, İslam, eləcə də təqva insanın səadətini tə`min edir, onu kamilliyə aparır. İslam dini "Allahın sən azad yaradıb, başqasına qul olma" şüarı ilə çıxış edib, əsarətə qarşı çıxır. Şəxsiyyəti, insanlığı, əxlaqı, müqəddəsliyi qorumaq azadlığa zidd deyil. Əksinə, dünyanın nəhəng əxlaqsızlıq təbliğatına qul olub, Allahı unutmaq, günahdan çəkinməmək əsil əsarətdir!

## 58-Cİ DƏRS: MÜTTƏQİNİN XÜSUSİYYƏTLƏRİ

Həzrət Əli (ə) bir abidə müttəqi insanın sifətlərini belə tanıtdırır:

-Onlar doğru danışar, orta dəyərli geyinər, təvazö ilə yol gedərlər;

-Harama göz yumar, faydalı elmi dinləyər, bəlanı rahatlıqla qarşılayarlar;

-Allahı böyük, ondan qeyrilərini kiçik bilər, behit ne`mətlərinə və cəhənnəm və oduna onları görən adam kimi yanaşarlar;

-Qəlbləri qəmgin olar, başqalarının şərindən amanda qalarlar; bədənləri arıq, istəkləri az, nəfsləri tox olar;

-Gündəlik namaza durar, Qur`an ayələrini düşüncə ilə oxuyarlar, Qur`an onları qəmləndirər, dərdlərinə Qur`anda dəva axtararlar...;

-Az əməldən razı qalmaz, nəfslərini danlayar, əməllərinə görə qorxarlar; tə`rif olunduqda qorxar, "mən özümü başqalarından daha yaxşı tınıyıram, Allah məndən də yaxşı tanıyır" deyər;

-Dini işlərdə güclü, adi vaxt uzaqgörən, yəqinlikdə möhkəm, elmə həris, ibadətdə müt`i, çətinlikdə dözümlü, halal ruzi üçün çalışqan, tamahdan uzaq olarlar;

-Onlardan xalq yaxşılıq gözləyər, onların şərindən hamı amandadır, söyüş söyməz, aram danaşarlar;

-Həqiqəti şahidsiz e`tiraf edər, kimsəni pis ləqəblə çağırmaz, xalqa gələn bəlaya sevinməz...

## 59-CU DƏRS: HƏR GÜN ÖZÜNÜ SORĞUYA ÇƏK!

Ölümdən sonra həyata, qəbr və qiyamət sorğusuna, cəhənnəm əzabına inanan şəxs öz əməllərinə, danışığına, əxlaqına biganə qala bilərmi?!

İmanlı insan elə bu dünyada öz əməllərini hesaba çəkib, tədbir görməli, qiyamət sorğusuna hazırlaşmalıdır. Ağıllı tacir hər gün dükanının, alverinin hesabını aparır, xeyir-zərərini müəyyən edir. Sual olunur: dünya, yoxsa axirət zərəri daha təhlükəlidir?!

Həzrət Əli (ə) buyurur: "Qiyamət sorğusundan qabaq həmin bu dünyada öz əməllərinizi hesaba çəkin"; "Bu dünyada nəfsini hesaba çəkən insan xeyir tapacaq."

İslam peyğəmbəri (s) sevimli səhabəsi Əbuzərə buyurur: "Qiyamətdə sorğuya çəkilənədək bu dünyada öz nəfsini hesaba çək. Bu günün hesabı qiyamət hesabından asandır."

İnsan öz nəfsini, əməllərini hesaba çəkməyə adət etmək üçün üç mərhələdə iş apara bilər:

1. Günün münasib bir vaxtında (məsələn, sübh namazından sonra) insan öz nəfsinə müraciət edib, deyə bilər ki, ey nəfs, hazırda diriyəm, amma ömrünmdən nə qədər qaldığı mə`lum deyil; ölümə hazır ol, bu gün savab dalınca get, günahdan çəkin və s.
2. Nəfslə şərt kəsdikdən sonra gün uzunu ona nəzarət etmək zəruridir. Həzrət Əli (ə) buyurur: "Nəfsi azad buraxmaq şeytana fürsət verməkdir."
3. Günün sonunda həmin günün əməllərini hesaba çəkmək üçün saat tə`yin olunur. Yol verilmiş nöqsanlara görə insan nəfsini danlayıb, tövbə edir.

## 60-CI DƏRS: TÖVBƏ

Günaha yol vermiş insan ümidini itirməməlidir. Təsəvvür edin ki, çayın bir tərəfindən o biri tərəfinə keçmək üçün suya hər addımdan bir daşlar düzülmüşdür. Çayı keçmək istəyən insan birinci daşın üstünə atılır. İkinci daşın üstünə atılarkən sürüşüb suya düşərsə, bütün qüvvəsini toplayır ki, yenidən daşın üzərinə çıxsın. Özünüz düşünün, heç ola bilərmi ki, sürüşüb suya düşən adam "qoy məni çay aparsın" deyə çobalamaya?! Əlbəttə ki, ola bilməz! Günah da həmin çaya sürüşüb islanmaq kimidir. Günaha yol vermiş insan peşiman olub, həmin yoldan geri dönməli, bir daha günaha batmamaq üçün diqqətli olmalıdır. Necə ki, bir

dəfə sürüşüb suya düşmüş insan ikinci dəfə sürüşməmək üçün çox diqqətli olur!

"Zumər" surəsinin 53-cü ayəsində buyurulur: "Ey mənim özlərinə zülm etməkdən həddi aşmış bəndələrim, Allahın rəhmətindən ümidinizi üzməyin. Həqiqətən, Allah bütün günahları bağışlayandır. "Nur" surəsində oxuyuruq: "Ey iman gətirənlər hamınız Allaha tövbə edin ki, bəlkə, nicat tapasınız."(a. 31)

Həzrət peyğəmbər (s) buyurur: "hər dərdin bir dərmanı var, günahın dərmanı tövbədir." İmam Baqir (ə) buyurur: "Tövbə edən şəxs sanki heç günah etməmişdir."

Tövbəyə qısa tərif verək: Tövbə insanın günahdan peşiman olub, bir daha günahı təkrarlamamaq haqqında Allaha verdiyi və`ddir.

## 61-ci dərs: Nədən tövbə edilməlidir?

İnsanı Allahdan uzaqlaşdıran bütün şeylər günahdır və günahdan tövbə etmək vacibdir. Günahlar iki qismə bölünür: əxlaqi günahlar və əməli günahlar.

Çirkin əxlaq nəfsi bulaşdırır və insanın kamala doğru hərəkətində maneəyə çevrilir. Nəfsdə kök atmış çirkin sifətlər insanın xarakterinə hopur. Nəfsi bu çirkinliklərdən təmizləmək zəruridir.

Əxlaqi günahlara misal olaraq riya, nifaq, qəzəb, təkəbbür, eqoistlik, zülm, yalan, tamah, böhtan kimi çirkin sifətləri göstərmək olar.

Oğurluq, qətl, zina, sələmçilik, fərarilik və s. əməli günahlara misal ola bilər.

Günahlar böyük və kiçik olmaqla da iki yerə bölünür. 40-cı dərsdə böyük günahlardan bir qismi sadalandı. İstər əxlaqi, istərsədə əməli günah böyük sayıla bilər.

Allah təala böyük günahları tərk edənlərin kiçik günahlarını bağışlayacağını və`d edir. Amma böyük günahlardan tövbə etmək vacibdir.

Amma elə günahlar da vardır ki, onları yalnız övliyalar günah kimi tanıyırlar. Məsələn, müstəhəb, yə`ni bəyənilmiş işi tərk etmək övliyalar üçün günah sayılır. Onlar bir fəqirin, miskinin yanından düz keçib, ona əl tutmağı özləri üçün günah hesab edir, ağlayıb-sızlayır, tövbə edirlər. peyğəmbərlərin və mə`sum imamların da tövbəsi bu qəbildəndir.

## 62-Cİ DƏRS: ALLAHA YAXINLIQ NƏDİR?

İnsan Allaha yaxınlaşa bilərmi? Əvvəlcə "yaxınlıq" kəlməsinin mə`nalarına nəzər salaq. Yaxınlıq üç cür ola bilər:

1. Məkanca yaxınlıq: İki mövcud məkanca yaxın ola bilər. Məsələn, bir həyətdə tikilmiş iki ev bir-birinə yaxındır.
2. Zamanca yaxınlıq. Məsələn, iki hadisə zamanca yaxın ola bilər.
3. Məcazi yaxınlıq. Bə`zən iki şəxs haqqında deyirlər ki, onlar bir-birinə yaxındır. Bu yaxınlıq iki şəxs arasındakı ehtiram və məhəbbətdən doğan yaxınlıqdır.

Allah üçün zaman və məkan məhdudiyyətləri mövcud olmadığından insan Allahla nə zaman, nə də məkanca yaxın ola bilməz. Bəndənin Allahla yaxınlığı məcazi yaxınlıq ola bilərmi? Həqiqətən də Allahın layiqli bəndələrə məhəbbəti var və onların istəklərinə cavab verir. Bununla belə Allahla bəndənin yaxınlığı məcazi hesab oluna bilməz. Ayə və hədislərdən aydın olur ki, insanın kamilliyə doğru zatı hərəkəti məcazi yox həqiqi bir hərəkətdir. "Fəcr" surəsinin 28-ci ayəsində oxuyuruq: "Allahına tərəf dön." "Casiyə" surəsinin 15-ci ayəsində buyurulur: "Nəhayət" Rəbbinizə tərəf qaytarılacaqsınız."

Demək, insanın Allaha doğru hərəkəti düşüncəli və ixtiyari bir hərəkətdir bu hərəkətin nəticəsi ölümdən sonra aşkar olur. Allaha yaxın məqam bir nöqtə yox, müxtəlif mərtəbələrə malik bir həqiqətdir.

## 63-CÜ DƏRS: ÖZÜNÜTƏRBİYƏDƏ ZİKRİN ROLU

Allahı zikr etmək böyük bir ibadət, nəfsin tərbiyəsində tə`sirli bir amildir. Allahın zikri dedikdə onu dil və qəlb ilə xatırlamaq nəzərdə tutulu. "Sübhanəllah", "əlhəmdulillah", "la ilahə illəllah", "əllahu əkbər" ən məşhur zikrlərdir.

Həzrət Əli (ə) buyurur : "Allahı kamil şəkildə zikr et. Qəlbinlə dilin, batininlə zahirin eyni olsun. Həqiqi zikr odur ki, insan öz nəfsini unuda."

İmam Sadiq (ə) buyurur: "Həqiqi zikr edən insan günaha batmaz." İslam peyğəmbəri (s) buyurur: "Üç şey ümmətim üçün çətindir.

1. Var dövlətdə mö`min qardaşla bərabər olmaq.
2. Xalqla insaflı olmaq.

3. Bütün hallarda Allahı zikr etmək. Zikr dedikdə "Sübhan əllah", "əlhəmdulillah" demək nəzərdə tutullur. Allahı zikr etmək odur ki, qarşıya haram iş çıxanda Allahdan qorxub günahdan uzaq olasan."

Allahın zikri üçün heç bir hədd müəyyən olunmamışdır. "Ali-İmran" surəsinin 41-ci ayəsində buyurulur: "Rəbbini çox yad et, axşamlar və səhərlər onun zikrində ol. İmam Sadiq (ə) buyurur: "Allahın bacardıqca çox, gündüzün və gecənin hər saatında zikr edin. Allah o mö`mini yada salır ki, həmin mö`min Allahı yada salmış olsun." Həzrət peyğəmbərdən (ə) soruşdular ki, məscid əhlinin yaxşısı kimdir? Həzrət buyurdu ki, Allahı başqalarından çox zikr edən şəxs.

## 64-CÜ DƏRS: İMANA APARAN YOLLAR.

İnsan öz imanını kamilləşdirmək üçün aşağıdakı yollardan istifadə edə bilər.

1. Təfəkkür və dəlillər

Allahın varlığını sübuta yetirən dəlillər haqqında düşünmək insanın imanını gücləndirir. Hikmət, kəlam, ürfan kitablarında sübut olunur ki, bütün varlıq aləmi Allahın iradəsi ilə yaşayır. Allah hər şeyi görür və bütün mövcudlara hətta onların özlərindən də yaxındır. "Hədid" surəsinin 4-cü ayəsində buyurulur: "Harada olsanız, O sizinlədir."

2. İlahi nişanələr

İnsan təbiət aləmini, müxtəlif heyvanların həyatını, aylı-ulduzlu səmanı diqqətlə müşahidə edərsə böyük yaradıcının nişanələri ilə rastlaşar. Dünya heyrətamiz gözəlliklərə bürünmüşdür. Hətta molekulun da tərkibində nazamlı bir həyat yaşanır. Bu gözəlliklərin rəssamı, bu nizamın qurucusuna həmd olsun!

3. İbadət

Allaha yaxınlaşmaq üçün, eləcə də nəfsin tərbiyəsi üçün ibadət müstəsna rola malikdir. "Hicr" surəsinin 99-cu ayəsində buyurulur: "Yəqin məqamına çatanadək Allahına ibadət et."

4. Zikr və dua

Ayə və rəvayətlərdə zikr və duanın səmərəsindən danışılır, bu vəsilələrlə Allaha yaxınlaşmaq tövsiyə edilər. Amma zikr və duada qəlbin iştirakı əsas şərtdir.

## 65-Cİ DƏRS: MƏ`RİFƏT ƏHLİNİN TÖVSİYYƏSİ

İnsanın özünü tərbiyədə müvəffəqiyyətə çatması üçün əxlaq alimlərinin bir sıra tövsiyyələri vardır. Onlardan bə`ziləri ilə tanış olaq:

-İnsan hər şeydən əvvəl tövbə etməklə nəfsini çirkinliklərdən təmizləməlidir; tövbə məqsədi ilə qüsl edib, batini aləmin paklanmasında ilahi yardımdan faydalanmaq lazımdır.

-Allahı davamlı şəkildə xatırlamaq

-Günün sonunda yaxşı və pis əməllərin hesabı

-Zərurətdən artıq danışmamaq

-Az yemək

-Daim dəstəmazlı olmaq. İslam peyğəmbərindən nəql olunur ki, Allah-təala buyurmuşdur: "Dəstəmazı batil olandan sonra onu təzələməyən, dəstəmazını təzələdikdən sonra iki rə`kət namaz qılmayan mənə cəfa etmişdir. Namaz qıldıqdan sonra dünya və axirəti üçün dua edənin duasını qəbul etməsəm, mən ona cəfa etmiş olaram. Mən isə cəfa edən deyiləm."

-"Ya həyyu, ya qəyyum, ya mən la ilahə illa əntə" zikrini daim vird etmək

-Gündə bir dəfə uzun səcdə

-Hər gün bir qədər Qur`an oxuyub, mə`naları düşünmək

-Gecə namazı qılmaq

Qeyd olunmuş tövsiyyələrə 40 gün ardıcıl əməl edən insan nəticəsini hiss edir, qəlbində əhəmiyyətli dəyişikliklər baş verir.

## 66-CI DƏRS: NƏFSİN TƏRBİYƏSİNDƏ MANELƏR

Nəfsin tərbiyəsində ilkin maneə insanda tərbiyələnmə qabiliyyətinin zəifliyidir. Günahlar qəlbi elə qaralda bilər ki, qəlb şeytanın hakimiyyəti altına düşər. Belə bir insan xalis tövbə qılıb günahlardan uzaqlaşmasa, irəli addım ata bilməz.

Dünyaya, var-dövlətə, hətta ata-anaya, övlada, elmə ifrat, dəlicəsinə vurğunluq təkamül yolunda maneədir.

Növbəti maneə nəfsə itaətdir. "Sad" surəsinin 26-cı ayəsində buyurulur: "Nəfs istəklərinə uyma, o səni Allahın yolundan azdırar."

Nəfsini tərbiyə etmək istəyən insan qarın qululuqdan çəkinməlidir. İslam peyğəmbəri (s) buyurur: "Çox yeməyin. Çox yemək qəlbinizin mə`rifət nurunu söndürər."

Özünü tərbiyədə sükutun, az danışmağın böyük əhəmiyyəti vardır. Həzrət peyğəmbər (s) buyurur: "Çox danışmaq qəlbi daşlaşdırır." Həzrət Əli (ə) isə buyurur: "Ağıl kamilləşəndə danışıq azalır."

Təkamül yolunda maneələrdən biri insanın özünə məhəbbətidir. Özünü sevən insan nə qədər ki, bu sifətdən uzaqlaşmayıb, Allaha yaxın məqama ucala bilməz. O, özünü sevdiyi üçün cəhənnəm odundan qorxub, ibadət etməklə behiştə gedə bilər. Yüksək məqam isə yalnız özünü unudub, Allahı düşünən insanlara nəsib olur.

Bəlkə də, ən mühüm maneələrdən biri iradəsizlikdir. İradəsiz insan mühüm işlərdən qəti qərara gələ bilmir. Şeytani tərəddüdlər ilkin addım atmaqda böyük maneəyə çevrilir.

## 67-Cİ DƏRS: ATA-ANAYA "UF" DEMƏ!

Ata-ana övladın yaranış və tərbiyə vasitəsidir. İslam dinində valideyn itaət və ehtiram tə`kidlə tapşırılmışdır. "İsra" surəsinin 22-ci ayəsində Allah-təala buyurur: "Ata-ananıza yaxşılıq edin." Böyük günahlar sırasında şirkdən sonra valideynlə pis rəftar gəlir. Uyğun surənin 23-cü ayəsində oxuyuruq: "Əgər onların biri və ya hər ikisi sənin yanında qocalığın ən düşkün çağına yetərsə, onlara "uf" belə demə, qışqırıb acı danışma"

Valideynə yalnız o zaman itaət etməmək olmaz ki, onlar dinin ziddinə əmr etsinlər. Təcrübədə sübut olub ki, ata-ananı incidənlər heç dünya həyatında da xoşbəxt ola bilmirlər.

Ata-ana övlad üçün ağacın kökü mislindədir. Budaqlar nə qədər inkişaf etsə də, kökdən qidalanmaqdan yaşaya bilməz.

Övladın valideynə hörmətsizliyi qarşılıqlı e`tinasızlıqla müşayiət olunduğu üçün cəmiyyətdə biganəlik yaranır. Övladından ehtiram görmək istəyən insan öz atan-anasına diqqətli olmalıdır. Övlad və valideyn arasında mövcud olan hörmətsizlik nikah və doğumların sayına da tə`sir göstərir. İslam tərbiyədən uzaq düşmüş əsrimizdə övladdan imtina halları çoxalır. Təbii ki, meyvələri acı, özü kölgəsiz bi ağac əkməyə dəyməz.

Cəmiyyətdə islami dəyərlərə ehtiram göstərilərsə, valideyn-övlad münasibətlərindəki şirinlik Allahın gözəl ne`mətlərindəndir.

## 68-Cİ DƏRS: ÖVLADIN HÜQUQLARI

Bir şəxsin xeyirinə görüləsi vacib iş haqq adlanır. Haqqı yerinə yetirmək isə dini vəzifədir.

İnsan bu dünyada əbədi olmadığından bəşər nəslinin davamı üçün onun artımı zəruridir. Allah insanı artıma fitrətən maraqlı yaratmışdır. Ona görə də ata-ana öz övladını ciyərparəsi bilir, onun varlığını öz varlığı hesab edir.

Valideyinin övlad qarşısında vəzifələri vardır:

1. Övlad işarə və söz anladığı ilk gündən başlayaraq onun əxlaqına diqqətli olmaq, onu çirkin vərdişlərdən çəkindirmək lazımdır.
2. Təmizlik həddinə çatanadək körpənin paklığına xüsusi diqqət vermək lazımdır
3. Oxuyub öyrənmək iste`dadına çatmış övlad layiqli müəllimin ixtiyarına verilməlidir.
4. Övladın cəmiyyətə çıxma yaşı çatdıqda valideyn onu özü ilə tədricən cəmiyyətə çıxarıb, ədəb qaydaları ilə tanış etməlidir.

Övlada yaxşı ad qoyub, ona Qur`an təlim etmək, tərbiyəsi ilə məşğul olmaq valideynin şər`i vəzifəsidir. Uşaq körpəlikdən böyüyə hörmət ruhunda tərbiyə olunmalıdır. Həzrət peyğəmbər (s) buyurur: "Yaşlılara ehtiram Allaha ehtiramdır."

Doğulmuş uşağa zərər olmazsa, ona viladət qüslü vermək, sağ qulağına azan, sol qulağına iqamə demək, yeddinci gün başını qırxmaq müstəhəbdir. Uşaq oğlandırsa, onu sünnət etmək vacibdir.

## 69-CU DƏRS: ƏDALƏT

Əxlaqını saflaşdırmaq, zinətləndirmək istəyən insan ilahi sifətlərə yiyələnməyə çalışmalıdır. Bu sifətlərdən bir ədalətdir.

Ədalət iki qismdir: fərdi ədalət və ictimai ədalət. Fərdi ədalət yalan, qeybət, böhtan kimi günahlardan çəkinməkdir. Böyük günahlardan çəkinib, kiçik günahları təkrarlamayan insanlar adil hesab olunur. Adil insanın elmi yetərli olarsa, o hakimlik, qəzavət edə bilər. müsəlmanlara tə`kidlə tapşırılmış cəmiyyət namazlarında pişnəmaz üçün ədalət vacib şərtdir. Ədalətsiz adama iqtida etmək olmaz.

Başqalarının hüququna riayət etmək isə ictimai ədalətdir. İnsan ilahi qanunlar qarşısında hamını bərabər bilməli,

vəzifəsinin icrasında həddi aşmamalıdır. Qur`ani kərimin "Nəhl" surəsinin 90-cı ayəsində oxuyuruq: "Allah ədalətli olmağı əmr edir."

Allah təala Qur`ani kərimdə yüz dəfədən çox zülmü xatırladır, onun çirkinliyini bəyan edir. Bütün insanlar zülmün pisliyini fitrətən anlayır və ətrafdakılardan ədalətli münasibət umacağından olur.

Tarix sübut edir ki, zülmlə ucalmış qəsr heç zaman davamlı olmur. "Ən`am" surəsinin 144-cü ayəsində buyurulur: "Allah zülm edənləri heç zaman hidayət etməz." Övliyaların məşhur buyuruğuAllah təala Qur`ani kərimdə yüz dəfədən çox zülmü xatırladır, onun çirkinliyini bəyan edir. Bütün insanlar zülmün pisliyini fitrətən anlayır və ətrafdakılardan ədalətli münasibət umacağından olur.

Tarix sübut edir ki, zülmlə ucalmış qəsr heç zaman davamlı olmur. "Ən`am" surəsinin 144-cü ayəsində buyurulur: "Allah zülm edənləri heç zaman hidayət etməz." Övliyaların məşhur buyuruğuna görə səltənət küfrlə yaşaya bilər, zülmlə yox! Fir`onların, nəmrudların ağrılı aqibətindən ibrət götürmək gərək!

## 70-Cİ DƏRS: XOŞ MÜNASİBƏT

Allahın ehtiyaclı olduğumuz sifətlərindən biri "rəhman"dır. Allah öz bəndələrinə mehribandır və bəndələri də öz aralarında mehribanlığa, xoş rəftara çağırır.

İnsan ictimai bir varlıq kimi başqaları ilə ünsiyyətdə olmağa məcburdur. İnsan bu müsibətlər vasitəsi ilə özünü hifz edir, maddi və mə`nəvi tərəqqisinə nail olur. Acıdil, qaşqabaqlı insan, təbii ki, pis qarşılanır və ətrafdakılar onunla ünsiyyətdən qaçırlar.

İslam dini öz ardıcıllarını mehribanlığa, xoş münasibətə də`vət edir. İslam peyğəmbəri (s) salam verməkdə hamını qabaqlayar, hətta uşaqlara birinci salam verərdi. Həzrət (s) ona verilən salamın cavabını daha böyük ehtiramla qaytarardı. "Nisa" surəsinin 86-ci ayəsində buyurulur: "Sizə salam verildiyi zaman onu daha gözəl qaytarın."

Lakin cəmiyyətdə məhəbbətlə qarşılanmaq üçün təkcə salam vermək kifayət etmir. İnsan sadə, səmimi olmalı, öz zahiri ilə başqalarını aldatmamalıdır. " Furqan" surəsinin 63-cü ayəsində oxuyuruq: "Layiqli bəndələr o şəxslərdir ki, yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara söz atdıqda yumuşaq, gözəl cavab verərlər."

Amma gülər üz, xoş münasibətin də şərtləri vardır. Ləyaqətsiz, zalım insanlara xoş münasibət göstərmək, günahkarlarla yaxın ünsiyyətdə olmaq İslam dinində pislənilir. Mö`min öz dini şəxsiyyətini alçaltmamalıdır.

## 71-Cİ DƏRS: YALAN

Yalan böyük günah hesab olunur. Bütün səmavi dinlər, eləcə də, İslam yalanı haram bilir. İslam peyğəmbəri (s) buyurur: "Kəbirə günahların ən böyüyü şirk, valideynin üzünə ağ olmaq və yalandır"; "Mö`min üzürsüz olaraq yalan danışarsa, 70 min mələk ona lə`nət oxuyar."

Yalan bəşəriyyətin açıq düşmənidir. O, narkotik maddə kimi insanların şüurunu məhv edib, həqiqətlərin üstünə pərdə çəkir. Yalan insanın şəxsiyyətini şübhə altına alır. İslam peyğəmbəri (s) buyurur: "Üç qism insan namaz qılıb oruc tutsa da, münafiqdir: yalançı, və`dinə vəfa etməyən və əmanətə xəyanət edən." Həzrət Əli (ə) buyurur: "İnsan zaman imanın ləzzətini dadır ki, hətta zarafata olsa belə yalanı tərk edir."

Cəmiyyət doğru informasiyaya ehtiyaclıdır. Təsəvvür edin ki, gözləri bağlanmış insan qarşısındakı quyulardan sağ-salamat keçmək üçün ətrafındakılardan mə`lumat alır. Əgər ətrafdakılar yolu quyu, quyunu yol kimi tanıtdırsalar, gözü bağlı insanı nə gözləyir?!

Yaşadığımız dünyada elə qlobal yalanlarla rastlaşırıq ki, ən mö`təbər təşkilatlara belə inam itir. Ermənistan Azərbaycanın torpaqlarının 20 faizini işğal etdiyi halda, dünya Azərbaycanı ittiham edir. İsrail Fələstin torpaqlarını qəsb etdiyi halda, fələstinlilər terorist adlandırılır. Odur ki, yalan ayaq tutub yeriyir deyirlər.

## 72-ci dərs: Qeybət və böhtan

Başqalarının haqqında deyilən pis söz doğru olsa qeybət, yalan olsa böhtandır. Həm qeybət, həm də böhtan böyük günahlar sırasındadır.

Sözsüz ki, insan mə`sum, günahsız deyil. Amma insanların bir çox günahı cəmiyyətdən gizli qalır. Allah-təala bu eyblərin üstündən pərdə çəkərək insanların birliyi üçün şərait yaratmişdır. Allah təalanın bir adı da "səttarül-üyub"dur, yə`ni günahların, eyblərin üstünə pərdə çəkən. Əgər bu pərdə bir an götürülərsə, insanlar özlərinin və özgələrin eyblərindən dəhşətə gələrək tərki-dünya olarlar.

İkinci bir tərəfdan, gizli günah edən insan üçün geri qayıtmaq daha asandır. Cəmiyyət içində xar olmuş insan bə`zən günahların daha da artırıb, həya pərdələrini yırtır. Qeybət gizli nöqsanları aşkarlayır, cəmiyyətin ehtiyaclı olduğu qarşılıqlı inam hissinə zərbə vurur.

"Hucurat" surəsinin 12-ci ayəsində buyurulur: "Bir-birinizin qeybətini etməyin. Müsəlmanın qeybəti onun meyitini yemək kimidir."

Qeybət doğru söz olduğu halda İslam peyğəmbəri (s) "qeybət zinadan pisdir" buyurur. Böhtan isə yalan, iftiradır. Qeybət bu ciddi məzəmmət olunmuşdursa, böhtanın çirkinliyi haqqında danışmağa dəyməz. Böhtançı yaxşıya pis, ağa qara, mö`minə münafiq, iffətli qadına əxlaqsız deməkdən çəkinmir. Allahın göndərdiyi peyğəmbərə şair, sehirbaz deyən böhtançıların imanı vardımı? "Nəhl" surəsinin 105-ci ayəsində buyurulur: "Böhtançının imanı yoxdur."

## 73-CÜ DƏRS: İZZƏTİ-NƏFS VƏ EHSAN.

İnsan ehtiyaclı varlıqdır. Bu ehtiyac insan şəxsiyyətinin tanınmasında mühüm rol oynayır. Əsil insan öz zehni və fiziki qüvvələrindən faydalanaraq bu ehtiyacları aradan qaldırmalıdır. Amma insanların bir qismi Allahın ona verdiyi qüvvələrdən səmərəli faydalanmayıb, başqalarının köməyinə göz dikir. Əlbəttə ki, bu, insana yaraşmayan sifətdir.

Amma "izəti-nəfs" adlanan bəyənilmiş bir sifət də vardır. İzzəti-nəfs olan insanlar min bir əziyyətə qatlaşıb, kimsəyə ağız açmır, Allahdan başqasına əyilmirlər. Beləlləri quldurluq, oğurluq, yalan, böhtan kimi günahlardan təbbi şəkildə uzaq olurlar.

Bu insanlar özləri və başqaları üçün imtahan olsun deyə ağır çətinliklə qarşılaşa bilərlər. Məsələn, anadan şikəst doğulmuş iki insan tamah baxımından eyni olmur. Onlardan biri başqalarına ağız açmaqla öz ehtiyaclarını ödəyirsə, izzəti-nəfsi olan şikəst nə etməlidir? Məhz bu məqamda Allahın ehsan haqqında buyurduqları yada düşür. Bəli, imkanlar böyük imtahan qarşısındadırlar. Cəmiyyətdə izzəti-nəfs olan ehtiyacılıları tapıb, onların ehtiyacını ödəmək böyük savabdır.

"Vaqiə" surəsinin 10-cu ayəsində oxuyuruq: "Göylərin və yerin mirası ancaq Allaha and olduğu halda nə üçün Allah yolunda infaq (infaq –ehsan etmək, bağışlamaq) etmirsiniz?"

## 74-CÜ DƏRS: FƏDAKARLIQ

İnsan üçün həyat nə qədər qiymətli olsa da onu şərafətlə yaşamaq daha mühümdür. Təsəvvür edin ki, vətənini düşməndən qoruyan iki əsgər düşmənə əsir düşir. Onlardan hərbi sirləri öyrənmək üçün düşmən bütün vasitələrdən istifadə edir. Əsgərlərdən bir şərafətli ölmü alçaq həyatdan üstün tutaraq, düşmənə sirr vermir və şəhadətə yetirilir. İkinci əsgər isə alçaqlıqla da olsa, yaşamaq üçün düşmənin bütün təklifləri ilə razılaşır...

Bəli, əsil müsəlman həqiqət yolunda canından keçir və əlbəttə ki, Allah tərəfindən mükafatlandırılır. "Ali-İmran" surəsinin 169-cu ayəsində buyurulur: "Allah yolunda öldürülənlər ölü deyil. Onlar əbədi əbədi həyata çatmış və yüksək bir məqamda ilahi ne`mətlərdən faydalanırlar."

İslam peyğəmbəri (s) buyurur: "Ən üstün yaxşılıq şəhadətə çatmıqdır."

Fədakar insanlara hər an ehtiyac var. Dənizdə batan insanı, od tutmuş binada qalmış körpəni xilas etmək üçün fədakarlıq lazımdır. Allahın sevimlisi olan belə insanlar cəmiyyət borcludur.

Düşmənə arxa çevirib döyüş meydanandan qaçan, zəlzələ zamanı ailəsini qoyub, özünü bayıra atan insan canını fəda etmək yox, hər şeyi canına fəda etmək qərarındadır. Allah belə insanları məzəmmət edir, fərariləri cəhənnəm odu ilə cəzalandıracağını bildirir. ("Ənfal", 16)

## 75-Cİ DƏRS: ƏHKAM (FİRUİ-DİN)

Əvvəlki dərslərdə qeyd etmişdik ki, İslam tə`limləri üç hissədən ibarətdir. İslam dinində hər bir müsəlman üçün konkret olaraq on vəzifə müəyyənləşdirilmişdir: Namaz, oruc, xums, zəkat, həcc, cihad, əmr be mə`ruf, nəhy əz münkər, təvəlla və təbərra.

Bəs bu dini vəzifələrə necə əməl edilməlidir? Hamı istədiyi vaxt, istədiyi tərəfə üzünü tutub, istədiyi şəkildə namaz qıla bilərmi? Hər bir müsəlman bu suallara cavab tapıb, düzgün əməl etmək üçün ya müctehid olmalı, ya bütün müctehidlərin nəzərlərindən xəbərdar olub ehtiyat

yolu ilə getməli, ya da ən elmli tanıdığı diri müctehidə təqlid etməlidir.

İbadət edən şəxs uyğun əməlləri hədəf yox, ilahi sifətlərə yaxınlaşmaq vasiləsi kimi tanımalıdır. İstənilən bir ibadətdə məqsəd Allaha yaxınlaşmaq deyilsə, bu ibadət səmərəsizdir.

İnsan öz ibadəti ilə başqalarının diqqətini cəlb etmək niyyətində olmamalıdır. İnsanın öz ibadətini tə`rif etməsi pislənilmişdir. "Nəcm" surəsinin 32-ci ayəsində buyurulur: "Özünüzü təmiz göstərməyə çalışmayın Allah təqvalı şəxsi daha yaxşı tanıyır."

Bütün ibadətlər insanı kamala yetirmək üçündür və Allahın bu ibadətlərə heç bir ehtiyacı yoxdur. Belə olduğu təqdirdə insanın öz ibadətinə görə Allahdan bir şey umması məntiqi deyildir.

## 76-CI DƏRS: RİSALƏ TERMİNLƏRİ

Əgər adi insanlar predmetə münasibəti yalnız "yaxşı" və "pis" deməklə bildirirlərsə, İslam fiqhində bütün əməllər son incəliyinədək öz qiymətini alır. Məsələn, adi insan üçün "fitva" və "hökm" sözlərinin heç bir fərqi yoxdur. Bir müsəlmana desən ki, bu iş vacib yox, ehtiyat-vacibdir, çətin ki, düzgün anlasın. Ona görə də fiqhi terminalogiyanı bilmək zəruridir. Zəruri terminləri diqqətinizə çatdırırıq:

1. Vacib – bu işə hökmən əməl olunmalıdır və onu etməmək günahdır.
2. Müstəhəb – bu, bəyənilmiş işdir və savabı var.
3. Məkruh – bu iş pislənilir və onu tərk etmək yaxşıdır.
4. Haram – bu işi görmək günahdır və hökmən tərk edilməlidir.
5. Mübah – bu görüb – görməməyin fərqi yoxdur.
6. Vacibi eyni – bu işi başqaları görsə belə, yenə də bu işi görmək vacibdir.
7. vacibi kifayi – buşqaları bu işi gördüyü halda insana vacib olmayan iş.
8. Vacibi təxəyyiri – qarşıdakı iki vacib işdən birini ixtiyari şəkildə seçmək olar.
9. Əşhər – Rəvayətlər arasında məşhur rəvayət
10. Əqva – risalə sahibinin nəzərində güclü görünən
11. Tərəddüd – bir-birinə zidd iki dəlilli məsələ.
12. Ehtiyat - əməldə ehtiyat
13. Ehtiyati müstəhəb – bu işin savabı var, amma tərk edilərsə cəzası yoxdur.

14. Ehtiyati vacib – ehtiyata əməl olunmalı, ya da başqalarından daha alim müctəhidə müraciət edilməlidir.
15. fitva – şərt və dəlil nəzərə alınmadan verilmiş ümumi hökm
16. Qəza – bir şəxsin müraciətinə əsasən verilən hökm

## 77-Cİ DƏRS: PAKLIQ

İslam dini öz ardıcıllarını mə`nəvi və fizioloji paklığa çağırır. Fiqhin əməl bölməsi insanın fiziki paklığını tə`min edəcək araşdırmalarla məşğuldur. Əlbəttə ki, bu sırf fiziki paklıq deyil. Məsələn, insan namazdan qabaq dəstəmaz alarkən əzaları yuyulduqca ruhunda bir paklıq duyulur.

Namaz qılan şəxs namaz zamanı aşağıdakı murdarlıqlardan pak olmalıdır:

1. İnsan və əti haram heyvanın sidiyi; 2. İnsan və ti haram olan heyvanın nəcisi; 3. Məni (sperma); 4. Qan; 5. İnsan və atıcı qanı olan heyvanın murdarı; 6. İt; 7. Quru donuzu; 8. Pivə; 9. Şirk və küfr.

Murdarlağı aradan qaldırmaq üçün pak edicilər mövcuddur:

1. Saf su; 2. Torpaq; 3. Günəş; 4. İstihalə (kimyəvi tərkib dəyişməklə mürdar pak ola bilər. Məsələn, şərab sirkəyə dönüb pak ola bilər);
5. İslam- Kafir İslamı qəbul etməklə pak ola bilər;
6. Təbiət – Kafr ata İslamı qəbul etməklə həddi- buluğ olmayan övlad da pak olar;
7. Heyvanın bədənindən mürdarın özünün (eyninin) getməsi;
8. İstibra – bir müddət murdarla qidalanmış heyvan müddət pak qidalanarsa pak olar (məsələn, qoyun on gün istibradan sonra pak olar);
9. Müsəlmanın qayib olması – bədənində və ya paltarında murdar olan müsəlmanla bir neçə gün sonra görüşdükdə murdar əlaməti görünməzsə, o, pak hesab olunur;
10. İntiqal – məsələn, insan nəcisi bitkiyə çevrilməklə pak olar.

## 78-Cİ DƏRS: DƏSTƏMAZ (VÜZU)

"Qur`ani kərimin" "Maidə" surəsinin 6-cı ayəsində buyurulur: "Ey iman gətirənlər, namaz üçün durduğunuz

zaman üzünüzü və dirsəklərinizədək həddə əllərinizi yuyun. Başınıza və topuqlarınızadək ayaqlarınıza məsh çəkin."

Deməк, namazdan qabaq dəstəmaz almaq vacibdir: əvvəlcə niyyət edilir, sonra ardıcılıqla üz, sağ və sol əl yuyulur, daha sonra başının qabağına və ayaqlara məsh çəkilir.

Altı şey dəstəmazı batil edir: 1. Sidiyə getmək; 2. Nəcisə getmək; 3. İnsandan yel xaric olması; 4. Gözü görməkdən, qulağı eşitməkdən saxlayan yuxu; 5. Dəlilik, məstlik, huşsuzluqla ağılın başdan çıxması; 6. Qadından qeyri – münəzzəm axan qan.

əgər bədəndə yara varsa, daha doğrusu, dəstəmaz üzvlərində yara varsa, nə etməli?

- Əgər yara bağlanıbsa, imkan olduğu surətdə onu açıb dəstəmaz gedişində suyun həmin hissəyə çatmasını tə`min etmək lazımdır; Əgər sarğını açmaq mümkün deyilsə, sarğının üstündən məsh etmək lazımdır.
- Dəstəmaz üzvlərindən böyük bir hissəsi sarğıdadırsa, və onu açmaq mümkün deyilsə, ehtiyatən təyəmüm də edilir.
- Yuyulması mümkün olmayan daha dərin yaraların ətrafı yüyulur və müstəhəb ehtiyata görə yaranın üstünə parça qoyulub, parçanın üstünə məsh çəkilir.
- Əgər dəstəmaz üzvünə qır kimi təmizlənməsi çətin olan bir şey yapışmışsa, bu hissənin üstündən məsh çəkmək kifayətdir.
- Təyyəmmüm zamanı yaranın sarğısını açmaq mümkün deyilsə, sarğı üstən təyəmmüm olunmalıdır.

Sarğı vasitəsi ilə cəbirə yerinə yetirilən dəstəmaz və təyəmmüm doğrudur və təkrar icraya ehtiyac yoxdur.

## 79-CU DƏRS: QÜSL VƏ TƏYƏMMÜM

"Maidə" surəsinin 6-cı ayəsində buyurulur: "Cünub olduğunuz vaxt paklanın". Qüsl müəyyən ardıcıllıqla (baş və boyun, bədənin sağ, sonra isə sol hissəsinin) bədənin yuyulmasından ibarətdir.

Əlbəttə ki, əvvəl niyyət olunur.

Cünub kimdir və insan hansı hallarda cünub olur? Ümumiyyətlə, qüsl necə növdür?

-Cinsi yaxınlıqdan, möhtəlimlikdən (insandan məni, yə`ni sperma xaric olandan sonra) sonra insan cünub olur. Cünub insan cənabət qüslü verməlidir.

- Meyitə verilən qüsl
- Meyitə toxunduqdan sonra verilən qüsl (şəhid istisnadır)
- Heyz qüslü (qadınlar üçün)
- İstihazə qüslü (qadınlar üçün)
- Nifas qüslü (qadınlar üçün)

Qüsl tərtibi və irtimasi ola bilər. Tərtibi qüsl baş-boyun, sağ və sol tərəfin ardıcıl yuyulmasıdır. İrtiması qüsldə isə bədən (məsələn, çayda) tədricən tam suya batırılır.

Dəstəmaz və qüsl üçün su tapılmadıqda, su insana zərərli olduqda, su axtarmaq təhlükə törətdikdə dəstəmaz və qüsl əvəzinə torpaq və ya qum vasitəsi ilə təyəmmüm edilər. Təyəmmümdə niyyətdən sonra hər iki əlin içi torpağa vurulur, əllər qoşa vəziyyətdə bütün alının hər iki tük bitən tərəflərinədək çəkilir. Daha sonra sol əlin içi sağ əlin üstünə və sağ əlin içi sol əlin üstünə çəkilir.

## 80-CI DƏRS: DİNİ VƏZİFƏLƏR HANSI YAŞDA VACİB OLUR?

Dini vəzifələr dörd şərt daxilində insana vacib olur:

1. Büluğ – oğlanlarda on beş yaş tamam olub, on altıya keçməli, qızlarda doqquz yaş tamam olub, ona keçməlidir. (Amma insanda növbəti üç şərt daha tez ödənərsə, dini vəzifə vacib olar)
2. Qüdrət – vəzifəyə əməl etmək üçün güc və qüvvəyə ehtiyac vardır. Allah ədalətlidir və kimsədən gücündən artıq iş tələb etməz. "Bəqərə" surəsinin 286-cı ayəsində buyurulur: "Allah kimsəni gücündən artıq yükləməz."
3. İxtiyar – vəzifəli olmaq üçün digər bir şərt insanın azad olmasıdır. Əgər insan zülm və zor altındadırsa, o, yalnız gücü çatan dini göstərişlərə vəzifəlidir.
4. Əql- əql insanı digər canlılardan fərqləndirən başlıca xüsusiyyətdir. Əqli olmayan varlıqdan nə tələb etmək olar?! Dini vəzifə yalnız əqlə malik

insanlara aiddir. Psixi cəhətdən xəstə, daha doğrusu, dəlilər üçün heç bir dini vəzifə yoxdur.

E`tiqadlı insan üçün büluğ, yetkinlik yaşına çatma günü onun həyatının ən mühüm günlərindəndir. Bir çox alimlər anadan olduğu günün yox, məhz yetkinlik yaşına çatdığı günün il dönümünü qeyd edirlər. Doğrudan da, insanın dini vəzifələri yerinə yetirməyə layiq olduğu gün, bir növ Allah qarşısında bəndəliyə layiq olduğu gün çox əlamətdardır. Belə bir mübarək günü hər il qeyd etməyə dəyər!

## 81-Cİ DƏRS: NAMAZ LİBASI, NAMAZ YERİ

Namaz qılanın bədəni, libası, səcdə yeri pak və təmiz olmalıdır.

Namaz qılanın libası və namaz qıldığı yer halal olmalıdır.

Təbii ipək libas geymək, qızıl bəzək əşyasından istifadə etmək kişilər üçün haramdır.

Əgər təmiz, gözəl geyinib ətirlənmək cəmiyyət üçün ehtiram hesab olunursa, insan öz yaradanının hüzurunda durub ibadət edərkən daha xoş görkəmdə olmalıdır. "Ə`raf" surəsinin 31-ci ayəsində buyurulur: "İbadət zamanı gözəl libaslarınızı geyin."

Q

adın namaz zamanı bütün bədənini, başını və saçlarını örtməlidir. Amma üzü dəstəmaz yuyulan həddə, əlləri və pəncələri (ayaqları) açıq saxlamaq olar. Qadınla kişinin bir cərgədə durub namaz qılması məkruhdur. Amma ortada pərdə olarsa və aradakı fasilə on ziraya (qol) çatarsa eybi yoxdur.

Kişilər namaz zamanı ayıb yerini örtmədən namaz qıla bilməzlər. Adətən göbəkdən dizədək örtmək nəzərdə tutulur.

Başqalarına məxsus yerdə icazəsiz namaz qılmaq olmaz. Bu, yer sahibinin hüququna riayət, eləcə də ədəb qaydasıdır. Namaz qılınan yer üçün beş şərt vardır: halal olsun, hərəkətsiz olsun, tavanın hündürlüyü düz dayanmağa imkan versin, bədən və paltara tə`sir edəcək rütübətli murdarlıq olmasın, səcdə yeri ilə dizlərin oturduğu yer arasında dörd bağlı barmaqdan çox hündürlük fərqi olmasın.

## 82-Cİ DƏRS: NAMAZ VAXTI

Namazın müqəddəmələrindən bir vaxtını tanımaqdır. İstər gündəlik vacib namazlar üçün müəyyən edilmiş beş vaxt, istərsə də digər ibadətlər üçün tə`yin edilmiş zaman dində mühüm məsələlərdəndir. İslam dini bu zəruri bilikləri əldə etmək üçün riyaziyyat və astronomiyanın dərinliklərinə varmışdır.

Vacib namazın beş vaxtı:

Sübh namazı – sübh ağartısından günəş doğanadək

Zörhr namazı – günortadan qüruba (gün batana) dörd rək`ət namaz vaxtı qılanadək.

Əsr namazı – günorta azanından dörd rək`ət namaz vaxtı keçən andan qüruba dörd rək`ət namaz vaxtı qalmışadək.

Məğrib namazı – məğrib azanından gecə yarıya dörd rək`ət namaz vaxtı qalmışadək.

İşa namazı – Qürubdan üç rəkət vaxtı keçən andan gecə yarıyadək (nəzərdə şər`i gecə yarı tutulur)

Amma gündəlik vacib namazlar üçün fəzilətli, daha savablı vaxtlar da müəyyənləşdirilmişdür:

Sübh namazı – sübh ağartısından məşriq qızartısınadək.

Zöhr namazı günortadan insanın kölgəsi öz ölçüsünə çatanadək

Əsr namazı insanın kölgəsi onun 4/7 uzunluğuna çatandan tam və ya ikiqat kölgəyə çatanadək.

Məğrib namazı – qürubun əvvəlindən şəfəq qızartısı itənədək

İşa namazı – şəfəq itəndən gecənin 1/3 –dək.

## 83-CÜ DƏRS: QİBLƏ

Namazın müqəddimələrindən biri də qiblədir. Namaz qılan namaz zamanı üzünü Kə`bə evinə tutmalıdır. Kə`bə Səudiyyə Ərəbistanının Məkkə şəhərində məscidül-həramda yerləşir.

Allah təala "Bəqərə" surəsinin 115-ci ayəsində buyurur: "Üzünüzü hara çevirsəniz, Allaha tərəfsiniz." Bəs nə üçün məhz Kə`bəyə sarı durmaq vacibdir? Məqsəd dünya müsəlmanlarının birliyidir.

Qibləni tapmaq üçün adətən kompasdan istifadə edilir. Əvvəlcə xəritəni düzgün yerləşdirmək lazımdır. Kompas vasitəsi ilə xəritənin şimalını şimal istiqamətində, cənubunu cənub istiqamətində nizamlayırıq. Məsələn, Moskva şəhərindəyiksə, Moskva nöqtəsindən Məkkə şəhərinə doğru

düz xət çəkirik. Bu xətt qiblənin istiqamətini göstərir. Yer kürə formasında olduğundan xəritənin (qlobusun) istənilən iki nöqtəsini iki xətlə birləşdirmək olar. Qibləni nisbətən qısa xətlə tə`yin edirik. Əgər hər iki xəttin uzunluğu bərabərdirsə, hər iki istiqamətdə namaz qılmaq olar.

Ümumiyyətlə, şər`i cəhətdən qibləni tə`yin etməyin dörd yolu vardır:

1. Namaz qılan şəxs qiblənin hansı tərəfdə olduğuna əmin olanadək çalışmalıdır.
2. İki adil şahidin dediyi ilə kifayətlənmək olar.
3. Elmi yolla qibləni tə`yin edən şəxsə inanmaq olar.
4. Məscid mehrablarına, müsəlman qəbirlərinin mövqeyinə əsasən qiblə tə`yin oluna bilər.

Qiblə ni tapmaq mümkün olmasa, 4 tərəfə, 4 dəfə namaz qılmaq lazımdır.

## 84-CÜ DƏRS: AZAN

Azan və iqamə qəza, istər əda olmuş olsun beş vaxtın namazı üçün təkid olunmuş müstəhəb əməllərdir.

Azanın mətni:

-Əllahu əkbər (4 dəfə)
-Əşhədu ənla ilahə illəllah (2 dəfə)
-Əşhədu ənnə Muhəmmədən Rəsulullah (2 dəfə)
-Əşhədu ənnə Əliyyən vəliyyullah (2 dəfə)
-Həyyə ələs-səlat (2 dəfə)
-Həyyə ələl-fəlah (2 dəfə)
-Həyyə əla xəyril-əməl (2 dəfə)
-Əllahu əkbər (2 dəfə)
-la ilahə illəllah (2 dəfə)

İqamədə isə birinci bənd iki dəfə, sonuncu bənd bir dəfə bir dəfə deyilir, "Həyyə əla xəyril-əməl"dən sonra iki dəfə "qəd qamətis –səlat" deyilir.

Müstəhəbdir ki, azan vermək üçün adil, vaxt tanıyan və uca səsli adam seçilsin. Azanı uca yerdə demək də müstəhəbdir.

Azan müsəlmanların tövhdi şüarıdır. Azan bütlərə qarşı ucalmış bir fəryaddır. İslamda ilk azançı Bilal olmuşdur. Qara dərili Bilala azan vermək tapşırığı İslam dinində milli, irqi ayrıseçkiliyə yol verilməməsinin sübutudur.

Azanın uca səsi ilə şeytanın təmkini tozulur, qaçmağa üz tutur!

## 85-Cİ DƏRS: NAMAZI BATİL EDƏNLƏR.

Namaza başlayarkən əvvəlcə niyyət etmək zəruridir. Namazın məqsədi ilahi sifətlərə yaxınlaşmaq, nəticədə, özünü tərbiyəyə nail olmaqdır. Sonra əlləri qulaqlar bərabərinə qaldırmaqla "Əllahu əkbər" deyilir və insan bütün dünya işlərini unudaraq öz yaradanı ilə "başlayır. Namaz zamanı 9 şeydən çəkinmək lazımdır:

1. Yemək, içmək (ağızda qalmış qırıntını udmaq olar)
2. Səs çıxarmaqla gülmək- qəhqəhə
3. Dınışmaq
4. İnsanı namaz halında çıxaran uzun işlər
5. Sağa – sola dönmək
6. Dünya işlərinə görə bərkdən ağlamaq
7. Namazın rüknlərini artırıb -əskiltmək.

(Namazın rüknləri: Niyyət, təkbirətül –ehram, təkbirətül-ehram və rukudan qabaq qiyam – düz duruş, ruku, hər rək`ətin iki səcdəsi)

8 Bilərəkdən namazın rüknü olmayan şeyləri artırıb -əskiltmək.

9. İki rək`ətli, üç rək`ətli namazlarda və dörd rək`ətli namazın ilk iki rək`ətində rək`ətlərin sayında şəkk.

## 86-CI DƏRS: VACİB NAMAZLARDA ARDICILLIQ

| Sübh | Günorta (zöhr) | İkinti (əsr) | Şam (məğrib) | Xüftən (işa) |
|---|---|---|---|---|
| İqamə | İqamə | İqamə | İqamə | İqamə |
| Niyyət | Niyyət | Niyyət | Niyyət | Niyyət |
| Təkbirətül-ehram | Təkbirətül –ehram | Təkbirətül-ehram | Təkbirətül-ehram | Təkbirətül-ehram |
| Həmd | Həmd | Həmd | Həmd | Həmd |
| Surə | Surə | Surə | Surə | Surə |
| Rüku | Rüku | Rüku | Rüku | Rüku |
| Səcdə x2 | Səcdə x2 | Səcdə x2 | Səcdə x2 | Səcdə x2 |
| Həmd | Həmd | Həmd | Həmd | Həmd |
| Surə | Surə | Surə | Surə | Surə |
| Qunut | Qunut | Qunut | Qunut | Qunut |
| Rüku | Rüku | Rüku | Rüku | Rüku |
| Səcdə x2 | Səcdə x2 | Səcdə x2 | Səcdə x2 | Səcdə x2 |
| Təşəhhüd | Təşəhhüd | Təşəhhüd | Təşəhhüd | Təşəhhüd |
| salam | Həmd | Həmd | Həmd | Həmd |

| | | | | |
|---|---|---|---|---|
| | Rüku | Rüku | Rüku | Rüku |
| | Səcdə x2 | Səcdə x2 | Səcdə x2 | Səcdə x2 |
| | Həmd | Həmd | Həmd | Həmd |
| | Rüku | Rüku | Rüku | Rüku |
| | Səcdə x2 | Səcdə x2 | Səcdə x2 | Səcdə x2 |
| | Təşəhhüd | Təşəhhüd | Təşəhhüd | Təşəhhüd |
| | Salam | Salam | Salam | Salam |

## 87-Cİ DƏRS: NİYYƏT VƏ TƏKBİRƏTÜL –EHRAM

-Niyyət bir işi görmək üçün qərara gəlməkdir.

-Niyyəti tələffüz etmək vacib deyil.

-Bə`zən niyyəti bir namazdan o biriə dəyişmək olur.

-Əda namazı qılan şəxsin yadına düşsə ki, öhdəsində qəza namazı qalıb, niyyətini qəza namazına döndərməsi müstəhəbdir.

-Təkbirətül –ehram "Əllahu əkbər" deməkdir və onu artırıb –azaltmaq namazı batil batil edir.

-Təkbirətül-ehram deyərkən əlləri qulaqlar bərabərinə qaldırmaq müstəhəbdir.

-Rükudan əvvəl qiyam (düz dayanış) namazın rüknüdür yə`ni əsasıdır.

-Təmamilə ayaq üstə durmağa qadir olmayan şəxs namazı oturaq qılmalıdır.

-Təmamilə durmağa və oturmağa qadir olmayan şəxs mümkün olsa sağ tərəfi üstə üzü qibləyə uzanıb namaz qılmalıdır.

- Yalnız arxası üstə uzana bilən şəxs qibləni gözləməklə bu halda namaz qıla bilər.

- Əgər bir şəxs namazda yalnız müəyyən qədər ayaq üstə durmağa qadirdirsə həmin qədər ayaq üstə qalıb, ardını oturaq davam etdirə bilər.

## 88-Cİ DƏRS: QİRAƏT

-Vacib namazların 1-ci və 2-ci rək`ətlərində həmd ("fatihə") surə ("İxlas") oxumaq (qiraət) vacibdir

-Vaxt məhdud olarsa, surəni oxumaqmaq da olar.

-"həmd" surəsini nafilə namazlarında da oxumaq vacibdir.

-Namazda vacib səcdəsi olan surələrdən oxumaq olmaz.

-Zöhr və əsr namazlarında həmd və surə astadan deyilməlidir.

-Kişilər sübh, məğrib və işa namazlarını ucadan qılmalıdırlar.

-Namazı fəryad həddində ucadan və şəxsin özünün eşitməyəcəyi həddə astadan qılmaq olmaz.

-Həmd və surənin qiraətində bilərəkdən səhvə yol vermək (hərəkə təşdid və s.) namazı batil edir.

-Həmd və surənin düzgün oxuşunu öyrənmək vacibdir.

Həmd –"Fatihə": Bismillahir –rəhmanir –rəhim, əlhəmdulillahi rəbbil aləmin, ərrəhmanir –rəhim, maliki yəvmiddin, iyyakə nə`budu və iyyakə nəstəin, ihtinəs-siratəl mustəqim, siratəlləzinə ən`əmtə ələyhim, ğəyril məğzubi ələyhim vələzzalin.

Surə -"İxlas": Bismillahir –rəhmanir –rəhim,

Qul hüvəllahu əhəd, əllahüs –səməd, ləm yəlid və ləm yuləd, və ləm yəkulləhu kufuvən əhəd.

## 89-CU DƏRS: RUKU VƏ SƏCDƏ

"Həcc" surəsinin 77-ci ayəsində buyurulur: "Ey iman gətirənlər, rüku və səcdə edin." Rüku əlləri dizlərə qoymaqla qəddin əyilməsidir.

-Namazın hər rək`ətində bir rüku vacibdir.

-Rükunun zikri rüku vəziyyətində aram dayanaraq deyilməlidir.

-Rükudan sonra qiyam və bir an aram dayanmaq vacibdir.

-Rükuda üç dəfə "sübhənallah" demək kifayətdir.

-Rükudan qalxdıqdan sonra "səliməllahu limən həmidə, əllahu əkbər" demək müstəhəbdir

-Namazın hər rək`ətində iki səcdə vacibdir.

-Səcdədə alını torpağa qoymaq vacibdir. Bədənin yeddi üzvünə dayaqlanmaq vacib ehtiyatdır.

-Səcdənin zikri səcdə vəziyyətində aram dayanmaqla deyilməlidir.

-Səcdədə üç dəfə "sübhənallah" demək kifaytdir

-Alınla ayaq barmaqlarının toxunduğu səth dörd barmaqdan çox fərqlənməlidir.

-İki səcdə arasında aram oturmaq vacibdir.

-İki səcdəni qurtarıb qalxarkən "bihəvlillahi və qüvvətihi əqumu və əq`ud" demək müstəhəbdir.

-Daşa, torpağa, torpağdan bitib yeməli və geyməli olmayan şeylərə səcdə etmək olar.

-Niyyət Allaha şükr etmək deyilsə qəbrə səcdə etmək haramdır.

## 90-CI DƏRS: TƏŞƏHHÜD VƏ SALAM

Əvvəla qeyd edək ki, bütün namazların ikinci rək`ətində həmd və surədən sonra əlləri dua vəziyətində qaldıraraq qunut tutmaqj müstəhəbdir. Qunutda istənilən duanı oxumaq olar.

41-ci dərsdə təşəhhüd və salamların yeri göstərilmişdir. Həm təşəhhüd, həm də salam oturaq vəziyyətdə icra olunur.

Təşəhhüdün mətni: əlhəmdulillah, əşhədu ənla ilahə illəllah, vəhdəhu la şərikə ləh, və əşhədu ənnə muhəmmədən əbduhu və rəsuluh, əllahummə səlli əla muhəmmədin və ali muhəmməd.

Salamın mətni: Əssəlamu ələykə əyyuhənnəbiyyu və rəhmətullahi və bərəkatuh, əssəlamu ələyna, və əla ibadillahi salihin, Əssəlamu ələykum rəhmətullahi və bərəkatuh.

-Namazın salamında "Əssəlamu ələyna və əla ibadillahis" və ya "Əssəlamu ələykum rəhmətullahi və bərəkatuh.cümlələri ilə kifayətlənmək olar. Amma kifayətlənmək müstəhəbdir.

-Təşəhhüdün sonunda salavat demək namazı batil edir.

-Salamı deyib namazı bitirdikdən sonra dua, şükr səcdəsi, tə`qibat olduqca faydalıdır.

## 91-Cİ DƏRS: CƏMİYYƏT NAMAZI, CÜMƏ NAMAZI, BAYRAM NAMAZI, AYƏT NAMAZI.

Qur`ani –kərimdə "rukuya gedənlərlə rüku edin" buyurulur. İslam ictimai din olduğundan ictimai tədbirlərə, eləcə də, cəmiyyət namazı adlanan birgə ibadətə üstünlük verir. "Cümə" surəsində müsəlmanlara cümə namazı qılmaq tapşırılır. Cümə namazı iki rək`ətdir. Cümə namazı qılmaq üçün islamla birlikdə azı beş nəfər olmalıdır. Cümə namazında iki hissədən ibarət xütbə oxunması vacibdir. Xütbənin birinci hissəsində müsəlmanlar təqvaya də`vət olunur, ikinci hissədə isə onlara taleh yüklü məsələlər barədə mə`lumat verilir.

İslam dinində iki rəsmi bayram qeyd olunur: Orucluq ayından sonra fitr bayramı və həcc mərasimindən sonra

qurban bayramı. Bu bayramlar münasibəti ilə iki rək`ət namaz qılmaq müstəhəbdir. Bu namazın birinci rək`ətində beş təkbir və beş qunut, ikinci rək`ətində dörd təkbir və dörd qunut vardır.

Ayət dedikdə günəş və ay tutulmalarını, zəlzələ və digər qorxulu təbiət hadisələrini nəzərdə tuturuq.

İslam peyğəmbərinin oğlu İbrahim vəfat edərkən günəş tutulmuşdu. Avam camaat bu hadisəni İbrahimin ölümü ilə əlaqənədirdilər. Amma peyğəmbər bu mövhumatı aradan qaldırmaq üçün oğlunun cənazəsini qoyub camaatın qarşısına çıxdı və buyurdu: "Ay və günəş Allahın fərmanı ilə hərəkət edirlər. Onların tutulması kiminsə ölümü ilə əlaqədar olmur. Ay və günəş tutulduqda namaz qılın."

Ayət namızı iki rək`ətdir və hər rək`ətdə beş rüku var. Hər rükudan qabaq bir həmd və surə oxunur.

Ayət namazının vacib olması üçün insanda bu hadisələrin baş verməsi hər hansı bir yolla yaranmalıdır.

## 92-Cİ DƏRS: ORUC

"Bəqərə" surəsinin 183-cü ayəsində Allah təala buyurur: "Ey iman gətirənlər, sizdən əvvəlkilərə vacib olduğu kimi sizin üçün də oruc vacib edildi."

Oruc hicri təqvimin ramazan ayında sübh azanından məğrib azanınadək Allaha yağınlıq niyyəti ilə aşağıdakı şeylərdən çəkinməkdir:

1. Yemək; 2. İçmək; 3. Cinsi yaxınlıq; 4. İstimna (özündən məni xaric etmə); 5. Allah, peyğəmbər və imamların adından yalan danışmaq; 6. Qatı tüstü və tozun boğaza (hülqə) çatması; 7. Qəsdən başı suya batırmaq; 8. Cünub, heyz, nifas halında sübh namazınadək qalmaq; 9. Qidalandırıcı iynələrdən istifadə; 10. Qəsdən qusmaq.

Orucun imana, təqvaya, sağlamlığa, iradəyə böyük faydaları vardır. İmam Sadiq (ə) buyurur: "Oruc təkcə yemək-içməkdən çəkinmək deyil. Oruc tutan insan dilini yalandan, gözünü haramdan qorumalı, dava-dalaşdan, həsəddən, qeybətdən qeylü –qaldan uzaq olmalı, hətta doğrudan and içməməli, söyüş söyməməli, zülmdən çəkinməlidir."

Orucunu bilərəkdən pozan adam həmin günün qəza orucunu tutmaqdan əlavə kəffarə ödəyir. Orucun kəffarəsi iki ay ardıcıl oruc tutmaq, bir qul azad etmək, 60

miskini doyurmaqdır. Haram yolla orucunu pozan insan (məsələn, şərab içməklə) hər üç kəffarəni ödəməlidir. Orucunu qusmaqla pozmuş adama kəffarə yoxdur və s.
Fitr və qurban bayramları günü oruc tutmaq (qəza orucu və ya müstəhəb orucu) haramdır. Qadın ərindən icazəsiz müstəhəb orucu tuta bilməz.

## 93-CÜ DƏRS: XUMS VƏ ZƏKAT.C

"Ənfal" surəsinin 41-ci ayəsində buyurulur: "Qənimətin beşdə biri Allaha, peyğəmbərə və onun yaxınlarına, yetimlərə, yoxsullara və yolda qalanlara aiddir." Şiə fiqhində yeddi şey üçün xums –beşdə bir (20 %) ödənməlidir:

1. Müharibədə ələ keçrilmiş qənimət; 2. Mədəndən hasil edilmiş qızıl, gümüş, neft, kükürd və s. Faydalı qazıntılar3. Xəzinə; 4. Üzgüçülük yolu ilə dənizdən çıxarılmış qiymətli daşlar; 5. İllik qazançın xərclənməmiş hissəsi; 6. İslamın pənahında olan qeyri –müsəlmanın ("zimmi") aldığı torpaq; 7. Sahibi və qədəri namə`lum olan harama qarışmış mal

İrs və mehriyyənin xumsunu vermək vacib deyil. Bir dəfə xumsu verilmiş kəlir üçün ikinci dəfə xums ödənmir
"Tövbə" surəsinin 103-cü ayəsində buyurulur: "Onların mallarından sədəqə al ki, bununla onları pak edəsən." Zəkat Qur`anda paklıq, təmizlik mə`nasında işlədilmişdir.
İslamda on şeyin zəkatını vermək vacibdir. Dəvə, inək, qoyun, buğda, xurma, arpa, kişmiş, qızıl, gümüş və orucluq ayının səhəri gün fitriyyə, yə`ni bədənin zəkatı. Lakin bir şeyin zəkatını vacib olması üçün həmin şeyin miqdarı nisab deyilən həddə çatmalıdır. 5 dəvəyə 1 qoyun, 30 inəyə bir dana, 30 qoyuna bir qoyun zəkat verilməlidir. Buğda, xurma, arpa və kişmiş nisab həddinə (847 kq) çatdıqda yağışla suvarılmışsa 1/10 əllə suvarılmışsa 1/20 hissə zəkat ödənir. Qızıl və gümüş üçün də nisab həddi və zəkat miqdarı müəyyənləşdirilmişdir.

## 94-CÜ DƏRS: HƏCC

"Ali –İmran" surəsinin 97-ci ayəsində buyurulur: "Qüvvəsi (istitaət) çatan insanlar Allaha xatir həccə

getməlidirlər. İtaətsizlik edənlər bilməlidirlər ki, Allah dünya əhlindən ehtiyacsızdır."

Həccin oduqca böyük ictimai əhəmiyyəti vardır Müxtəlif millətlərdən olan müsəlmanların bir yerə toplaşıb, tapış olması, bir-birlərinin vəziyyətindən xəbər tutması olduqca mühüm bir məsələdir. Həcc müsəlman dünyasının birliyinin tə`min edən əzəmətli bir ibadətdir.

Həcc dinin sütanlarındandır və istitaətli insanın həccə getməsi böyük günahdır. Həccə gedən insan qayıtdıqdan sonra normal yaşayış və iş imkanına malik olmalıdır.

Həcc proqramı iki hissədir. Birinci hissədə (Ümreyi təməttə) beş əməli yerinə yetirmək vacibdir: 1. Ehram; 2. Təvaf; 3. Təvaf namazı; 4. Səfa və Mərvə arasında sə`y; 5. Saç və dırnaqdan qısaltmaq.

Həcc proqramının ikinci hissəsi (həcci təməttö) on üç əməldən ibarətdir: 1. Məkkədə ehram; 2. Ərəfatda qalmaq; 3. Məş`ərül –həramda qalmaq; 4. Cəmərəyi -əqəbədə daşlama; 5. Zibh (qurban kəsmək); 6. Hülq və təqsir (başın ülgüclə qırxılması, dırnağı qısaltmaq); 7. Kəbənin təvafı; 8. Təvaf namazı; 9. Səfa və Mərvə arasında sə`y; 10. Təvafi- nisa; 11. Təvafi – nisa namazı; 12. Minada qalmaq; 13. Minada üç daşlama.

Ehram dedikdə niyyət, xüsusi geyim geyib, "ləbbeyk" deyilməsi nəzərdə tutulur. Təvaf sol çiyin kə`bə evinə tə`rəf olmaqla qara daşdan başlayaraq 7 dəfə kə`bənin ətrafına dövrə vurulmasıdır.

## 95-Cİ DƏRS: CİHAD

"Bəqərə" surəsinin 216-cı ayəsində buyurulur: "Xoşunuz gəlmədiyi halda sizə cihad yazılmışdır." Uyğun surənin 218-ci ayəsində oxuyuruq: "İman gətirənlər və hicrət edib Allah yolunda cihad edənlər Allahın rəhmətinə bel bağlamışlar."

Hər bir yaranmış öz varlığını qorumaqdadır. İnsan da öz növbəsində onu məhv etmək fikrində olan düşmənlə mübarizədədir. Varlığın və mənafelərin qorunması fitri bir istəkdir.

İslam ictimai bir din olaraq həqiqətə təslim olmayan bütün qüvvələri bəşəriyyətə düşmən bilir. İşi dünyada məzlum qanı axıtmaqdan ibarət olan imperialistlər İslami "qılınc dini" adlandırmaqla öz əsil sifətlərini gizlətməyə cəhd edirlər. Hansı ki, şüarı "nisa" surəsinin 128-ci ayəsində

buyurulduğu kimi "sülh daha xeyilidir" olan İslam başəriyyəti bir ovuc zalıma yox, həqiqətə təslim olmağa çağırır. İslam insan əməyinin yox, insan gönlünün müştərisidir.

İslam peyğəmbərinin (s) həyatı dövründə mühüm və çətin müharibələr baş verir. Bütün bu müharibələrdə müsəlmanlar iki yüz nəfərə qədər, kafirlər isə min nəfərə qədər itki vermişdir. Bu rəqəm bir daha İslami sülhə, mərhəmmətə olan bağlılığını göstərir. Amma bir atom bombası atmaqla 200 min insanı bir anda məhv edən Amerik (1945 6 avqust, Xirosiia) İslamı torrorizmdə suçlayı.

Dünyada  həqiqətdə müqəddəs dəyər yoxdur. Allah – təala həqiqətə təslim olmağa, onu müdafiə etməyə, onun uğrunda silaha sarılmağa çağırır. İslam dini bir həqiqət olaraq batilə, zülmə, istismara, küfrə cihad e`lan edir!

## 96-CI DƏRS: ƏMR BE MƏ`RUF NƏHY ƏZ MÜNKƏR

"Ali –İmran" surəsinin 104-cü ayəsində buyurulur: "Sizin aranızda yaxşılığa çağıran (əmr edən) və pis işlərdən çəkindirən (nəhy edən) bir ümmət olmalıdır." Əmr be mə`ruf" dedikdə yaxşılığa də`vət, "nəhy əz münkər" dedikdə pis işlərdən çəkindirmə başa düşülür.

İslam peyğəmbəri (s) buyurur: "Nə qədər ki, ümmətimin arasında yaxşılığa də`vət edib, pislikdən çəkindirənlər olacaq, onlar xeyir içində yaşayacaqlar.  Bu əməl tərk olunan kimi ilahi bərəkət də çəkiləcək. İnsanlar bir-birinə hakim olacaq, yerdə və göydə yardım tapılmayacaq."

Əmr be mə`ruf və nəhy əz münkər kifayi vacib əməldir. Yə`ni  cəmiyyətdə bir qrup insan bu vəzifənin öhdəsindən gələrsə, başqaları üçün vacib olmaz.

Bu vacib dini vəzifənin mərtəbələri vardır: qəlb, dil və əməl yolu ilə. İnsan ilkin mərhələdə yalnız qəlbi ilə müxalifət göstərməlidir. Məsələn, iki dostdan biri günaha yol verdikdə o biri dost soyuq münasibət göstərməklə e`tirazını ifadə edir.

Növbəti mərhələdə insan günaha qarşı dil vasitəsi ilə çıxış edir. Bu işdə ruhanilərin fəaliyyəti müstəsna əhəmiyyətə malikdir. Yetərli biliyə və nitq qabiliyyətinə əhəmiyyətə malik insanlar cəmiyyəti günahdan çəkindirmək də insanları saleh əməllərə həvəsləndirməkdə daha çox müvəffəq olurlar.

Son mərhələ əməlidir. Bu mərhələ qəlb və dil tə`sirsiz olduqda mümkündür. Unutmaq olmaz ki, əmr be mə`ruf və nəhy əz münkər cəmiyyətdə təfriqə yox, vəhdət məqsədi daşıyır.

## 97-Cİ DƏRS: TƏVƏLLA VƏ TƏBƏRRA

"Təvəlla və təbərra" dedikdə Allahın dostları ilə dost, düşmənləri ilə düşmən olmaq nəzərdə tutulur.

İnsan ictimai varlıq olduğundan öz həmnövləri ilə ünsiyyətə, yodaşlığa məcburdur. Amma o, bir qurup insanlarla xüsusi münasibətdə olmağa ehtiyac duyur və bu insanları dost adlandırır.

"Fürqan" surəsinin 28-ci ayəsində buyurulur: "Vay halıma! Kaş filankəsi özümə dost seçməyəydim!" Ayədə qiyamət səhnəsində, seçdiyi dosta peşiman olmuş insandan danışılır. Aydın olur ki, insanın xoşbəxtliyində dost əhəmiyyətli rol oynayır. Həzrət Əli (ə) buyurur: "Bir insanın kimliyini tanımaq üçün onun dostlarına nəzər salın. Əgər dostları din əhlidirsə, o da din əhlidir, dostları din əhli deyilsə, o da dindən, doğru yoldan uzaqdır." İmam Məhəmməd Təqi (ə) buyurur: "Pis insanlarla dostluqdan çəkin. Onlar yalın qılınc kimidirlər –zahirən gözəl, həqiqətdə çirkin!"

Təbbi ki, insan öz həyatında düşmənlər də qazanır. İslam dinində kafirlə dostluq məzəmmət olunduğu kimi, mö`minlə düşmənçilik də pislənilir. Allah təala "mö`minlər qardaşdırlar" buyurur:

Hər bir əməldə məqsəd var. Allahın razılığını qazanmaq məqsədi daşıyan insanın əməli ibadətdir. Allahın dostu ilə dostluq, düşməni ilə düşmənlik üstün ibadətlərdəndir. Şeytan insanlar, xüsusi ilə də, mö`minlər arasında təfriqə salmaq qəsdindədir. Allahın razılığını düşünən insan isə mö`minlə düşmən, kafirlə dost olası deyil!

## 98-Cİ DƏRS: ƏN BÖYÜK ÇƏTİNLİK.

Xülasə şəkildə də olsa, İslam tə`limləri ilə tanış olduq. Əsas çətinlik isə qalır.

Ən böyük çətinlik insanın oxuduqlarına, eşitdiklərinə biganə qalmasıdır. İnsan unutmamalıdır ki, elm əməl deyil! İnsan elm yox, elmə əsaslanan əməl xilas edə bilər. Təsəvvür edin ki, xəstə insan axtarışlar aparır, kitablar oxuyur, nəhayət, xəstəliyini və bu xəstəliyin müalicə yollarını

öyrənir. Bunula iş biirmi? Xəstəliyin diaqnozunu və müalicə yollarını bilməklə sağalmaq olarmı? Cavab bir mə`nalıdır: Xeyir! Bəs necə ola bilər ki, Allaha yaxınlaşmaq, kamilləşmə yollarını öyrənmiş insan heç bir iş görmədən, başqa sözlə, bildiyinə əməl etmədən Allaha yaxınlaşa, kamilləşə?! Xəstə dərmasız, müalicəsiz sağalmadığı kimi, dini elmləri oxumuş insan da oxuduğuna əməl etmədən iman qazana bilməz.

İnsan özünə suallar verməlidir:

-Bu vaxtadək kamilləşmək fikrində olmusanmı?

-Nəfsindəki, əxlaqındakı çirkin sifətləri tanıyırsanmı?

-Allahın göstərişlərinə əməl edirsənmi?

-Namazda fikrin harada olur?

-Heç ölüm haqqında düşünürsənmi?

-Qeybətdən, böhtandan, yalandan uzaqsanmı?

-Xums, zəkat, məzlumların haqqını ödəyirsənmi

-Dostların kimdir, Allahın sənin dostlarından razıdırmı?

-Bilirsənmi ki, ölmünə nə qədər qalıb?

## 99-CU DƏRS: DUA

"Ğafir" ("Mo`min") surəsinin 63-cü ayəsində buyurulur: "Rəbbimiz buyurmuşdur: Məni cağırın, icabət edim (sizə cavab verim). Həqiqətən, mənə ibadət etməkdən boyun qaçıranlar tezliklə zəlil halda cəhənnəmə daxil olacaqlar."

İslam peyğəmbəri (s) buyurur: "Dua ibadətin məğzi və ruhudur"; "Dua mö`minin silahı, dinin sütunu, yerin və göyün nurudur." İmam Riza (ə) buyurur: "Peyğəmbərlərin silahından (duadan) istifadə edin." Həzrət Əli (ə) buyurur: "Dua xoşbəxtliyin açarıdır."

Bütün varlığı ilə Allaha ehtiyaclı olan insan olmalıdır ki, Allah bir an nəzərini çəksə bütün kainat məhv olar. Dua edən insan öz yaradanını xatırlayır, acizliyini e`tiraf edib, Ondan kömək istəyir. Dua bütün müşküllərin açarıdır. İlk baxışdan düzəlməsi mümkün olmayan işlər, sağalmayan xəstəliklər həqiqi dua vasitəsi ilə bir anda həllini tapır.

Amma duanın da qəbul şərtləri vardır:

1. Duada qəlb iştirak etməlidir. Bə`zən insan saatlarla dua oxuduğu halda, qəlbində Allahı yox, dünya işlərini düşünür. Duada davamlı olaraq Allahın hüzürunu hiss etmək zəruridir.
2. Duanın qəbulu üçün insan təvazö halında olmalı, özünü kiçik və aciz, Allahı böyük və qadir bilməlidir.

3. Duanın qəbul olacağına ümid etmək
4. Allahı tanımaq. Allahı tanımayan insan Ondan zərərli bir şeydə istəyə bilər. Dua edən şəxs Allahın qadir, alim ədalətli olduğunu unutmamalıdır.

## 100-Cİ DƏRS: ŞEYTANA UYMAYAQ!

Şeytan daim pusquda durub, Allah əmrinə itaət etmək istəyən insan üçün maneələr yaradır.

Allah İbrahim peyğəmbərə (ə) əmr etdi ki, oğlunu Allah yolunda qurban kəs. Həmin vaxt İbrahimin yaşı yüzü ötmüş, İsmailinsə cəmi on üç yaşı vardı.

İbrahim oğlu İsmailin əlindən tutub, Minaya gətirdi. Şeytan bilirdi ki, həz rət İbrahim Allahın bu imtahanından ləyaqətlə çıxsa, imamət məqamına yüksələcək. Cəld özünü İsmailin anası Hacərə çatdırıb, dedi:

-Bilirsənmi, İbrahim İsmailin başını kəsmək istəyir?

Hacər dedi:

-Kimsəyə zərrəcə əziyyət verməmiş kəs belə bir iş tuta bilməz.

Şeytan əl çəkmədi:

-O elə bilir ki, bu işi Allah əmr edib.

Hacər tövrünü pozmadan cavab verdi:

-Əgər Allah əmr edibsə, eybi yoxdur.

Hacərdən əlini üzən şeytan İbrahimin yanına gəlib dedi:

-İsmailin nə günahı var ki, başını kəsirsən?!

İbrahim buyurdu:

-Bu Allahın əmridir.

Şeytan başqa fəndə əl atdı:

-Sən oğlunun başını kəssən bu iş adət şəklini alacaq.

İbrahim (ə) buyurdu:

-Mən Allahın əmrini yerinə yetirirəm.

-Bəlkə, heç Allah əmr etməyib –dedi Şeytan.

Həzrət İbrahim (ə) yerdən daş götürüb, şeytana atdı.

Nəhayət, Şeytan İsmailə yaxınlaşıb dilini işə saldı.

-Bili rsənmi, atan səni qurban kəsmək istəyir?

-Atam belə iş görməz –dedi İsmail.

-O deyir ki, bu Allahın əmridir.

-Elədirsə, canım Allahın əmrinə qurban!

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

M. Mütəhhəri "İslam elmləri"
Ə. Təbatəbai "İslam tə`limlərinin xülasəsi"
İmam Rahil "Yeni risalə"
İ. Əmini "Özünü tərbiyə"
Şəhid Dəstğeyb "Böyük günahlar"
M. Mütəhhəri "On söhbət"
M. Qiraəti "Namazın sirri" "Nümunə təfsir" "Üsuli kafi"
C. Sübhani "İlahiyyat və islam maarif"
M. Təbrizi "Nə etməli?"